RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 143 (10163) 12 avqust 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# 17-ci səfər

## Prezident İlham ƏLİYEV: "Hər səfərimin böyük mənası və gözəl nəticələri vardır"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfərə gediblər.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində inşa edilən, ümumi gücü 50 MVt olan "Şəms 1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarında görülən işlərlə tanış olub, Naxçıvan Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib, Naxçıvan şəhərində istifadəyə veriləcək elektrik mühərrikli yeni avtobuslara baxıb, Naxçıvan Muxtar Respublikasının dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanış olub, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan DOST Agentliyinin Naxçıvan Regional DOST Mərkəzinin açılışında iştirak ediblər.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının verilməsinə həsr olunmuş mərasimdə, "Naxçıvan" Mehmanxana Kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" ilə, Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işləri ilə tanış olub, Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoyub.

Dövlət başçısı İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verib.

2-7

# Uzaq Vaşinqtondan yaxın münasibət

## Azərbaycan və ABŞ Cənubi Qafqazda yeni düzən formalaşdırır



Bir il əvvəl Vaşinqtonda Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında keçirilmiş görüş və aparılan müzakirələr iki ölkə arasında münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdi. Bu görüşün ən mühüm nəticələrindən biri "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya"nın hazırlanması barədə razılaşma oldu.

Belə bir sənədin hazırlanması iki ölkə arasındakı münasibətlərin ayrı-ayrı əməkdaşlıq sahələrindən daha geniş strateji çərçivəyə keçirilməsinin göstəricisidir. Azərbaycan-ABŞ münasibətlərində siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji, nəqliyyat, təhlükəsizlik və regional bağlantılar kimi istiqamətlər artıq daha geniş strateji perspektivdə nəzərdən keçirilməkdədir. Vaşinqton səfəri zamanı "Azadlığa dəstək Aktı"na 907-ci düzəlişlə bağlı qərar və TRIPP layihəsi üzrə razılaşma da münasibətlərin yeni mərhələsinin konkret göstəricilərinə çevrildi. Bütün bunlar ABŞ-Azərbaycan əlaqələrinin transformasiyasının əsas nəticələri sırasındadır. Məsələn, 907-ci düzəlişin aradan qaldırılması münasibətlərin siyasi yükünü dəyişir. Çünki Azərbaycan-ABŞ münasibətlərində uzun müddət mübahisə mövzusu olmuş ən əhəmiyyətli məsələlərdən biri məhz 907-ci düzəliş idi. Bu düzəlişlə bağlı yeni yanaşmanın formalaşması Bakı-Vaşinqton əlaqələrində siyasi etimadın güclənməsi baxımından son dərəcə mühümdür. Azərbaycan üçün uzun müddət siyasi narazılıq doğuran məhdudiyyətlərdən birinin aradan qaldırılması ABŞ-nin rəsmi Bakı ilə iş birliyinə yeni prizmadan yanaşdığını nümayiş etdirir. Beləliklə, iki ölkə arasında münasibətlərin transformasiyası yeni əməkdaşlıq mexanizmlərinin yaradılmasına paralel şəkildə keçmişdən qalmış siyasi problemlərin həllinə yanaşmanın dəyişməsi ilə də xarakterizə olunur.

8

# Azərbaycanın etibarlı tərəfdaşlıq və sülh modeli



Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı imzalanmış Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, cari ilin fevralında ABŞ və Azərbaycan arasında Bakıda imzalanan Strateji Tərəfdaşlıq Xartiyası, bu ilin iyulunda Almaniya ilə imzalanmış "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" kimi strateji sənədlər dünyanın aparıcı gücləri ilə münasibətlərin institusional zirvəsidir.

Son illərdə Azərbaycanın Mərkəzi Asiya istiqamətində yürütdüyü xarici siyasət, regional siyasətin sistemli və təsisatlaşmış əsasını qoyub. Dövlət başçıları səviyyəsində aparılan intensiv diplomatiya bu prosesin aparıcı qüvvəsidir. Təkcə 2023-cü ildən etibarən Prezident İlham Əliyevin Mərkəzi Asiyanın qardaş ölkələrinə 16 dəfə səfər etməsi, bu regionun liderlərinin isə Azərbaycana 26 dəfə gəlməsi təmasların nə dərəcədə yüksək dinamikaya malik olduğunu nümayiş etdirir. Bu göstərici, Cənubi Qafqaz və Mərkəzi Asiyanın artıq vahid geosiyasi və geoiqtisadi arena kimi hərəkət etdiyinin aydın sübutudur.

Prezident Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasında təsisçi üzv kimi ölkəmizin iştirakı isə Azərbaycanın qlobal sülh platformalarında söz sahibi olduğunun təzahürüdür. Sülhü yalnız sözdə deyil, həm də əməli addımları, təşəbbüsləri və tərəfdaşlıq layihələri ilə əyani şəkildə dəstəkləyən Bakı siyasi iradə və uğurlu diplomatiya ilə barışın mümkün olduğunu ortaya qoyur.

9




# Azərbaycan Prezidentinin irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsü geosiyasi baxımdan olduqca səmərəlidir

Cənubi Qafqaz, Çin, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələrinin Avropa ilə ticarət əlaqələri Orta və Zəngəzur dəhlizləri vasitəsilə həyata keçiriləcək. Hər iki dəhlizin Avropaya çıxışı Türkiyədən keçir.

Bunun üçün isə Türkiyədə iki mühüm layihə həyata keçirilib. Bunlardan biri 2016-cı ildə istismara verilən, İstanbulda Bosfor boğazının altından keçən 14,6 kilometrlik avtomobil tuneli, digəri isə 2013-cü ildə istifadəyə verilən və 13,5 kilometrlik uzunluğa malik olan Mərmərə dənizaltı dəmir yolu tunelidir. Bu layihələr iki qitəni birləşdirərək Avrasiya regionu boyunca yerləşən bütün dövlətlərin ticarət əlaqələrini artırır. Avropa İttifaqına daxil olan dövlətlər də bu səmərəli marşrutdan istifadə etməkdə maraqlıdırlar ki, bu da iqtisadi artımla yanaşı, siyasi sabitlik də vəd edir. İstər Asiya, istərsə də Avropa dövlətləri yüklərinin keçdiyi ərazilərdə qeyri-sabitliyə və separatçılığa imkan verməzlər.

9

# Kapital qoyuluşunun dinamikası yüksəlir



Dünyada baş verən məlum proseslər səbəbindən qlobal iqtisadiyyatda kapital qoyuluşu xeyli azalmışdır. Bu mənfi proseslər ölkəmizdən də yan keçməmişdir. Belə olan halda dövlət ölkənin iqtisadi inkişafındakı dinamikanı qoruyub saxlamaq üçün özü birbaşa investor kimi çıxış edir. Bunun sayəsində iqtisadiyyatda əldə olunan uğurları qoruyub saxlamaq mümkün olur.

Cari ilin birinci yarısında ölkəmizdə kapital qoyuluşunda yerli və xarici investorların aktivliyinin artması dövlətin daha geniş təşviqedici tədbirlərinin nəticəsidir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-iyun aylarında ölkənin sosial-iqtisadi sahələrinin inkişafı üçün bütün mənbələrdən əsas kapitala 9 milyard 295,2 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,8 faiz çox investisiya yönəldilmişdir. Hesabat dövründə neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 34,3, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 5,5 faiz artmışdır.

Ölkənin iqtisadi inkişafı üçün investisiya qoyularkən onun səmərəliliyi də nəzərə alınır. Belə ki, qoyulan ümumi sərmayənin 54,2 faizindən məhsul istehsalı, 31,8 faizindən xidmət, 14 faizindən isə yaşayış evlərinin tikintisində istifadə olunub.

10

◆ **Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri**

# 17-ci səfər

## Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılan abidəsini ziyarət



**Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım abidənin önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

## Naxçıvan şəhərində "Şəms 1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarında görülən işlərlə tanışlıq



**Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində inşa edilən, ümumi gücü 50 MVt olan "Şəms 1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarında görülən işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazov layihələrlə bağlı dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, 25 MVt-lıq "Şəms 1" layihəsi müəyyən edilmiş bərpaolunan enerji mənbələri ərazisində 52 hektar sahədə həyata keçirilir. "CEİ Naxçıvan" MMC tərəfindən artıq 10 MVt gücündə Günəş panellərinin quraşdırılması başa çatdırılıb. Tikinti-quraşdırma işlərinin bu ilin noyabrında yekunlaşdırılması planlaşdırılır. Şəbəkə infrastrukturunun inşası yekunlaşdıqdan sonra stansiya istismara veriləcək. Hazırda layihənin icrasında 218 nəfər işçi çalışır.

Stansiyanın istismara verilməsindən sonra illik təxminən 57 milyon kilovat-saat elektrik enerjisinin istehsal olunacağı və 19 minə yaxın ev təsərrüfatının enerji ilə təmin ediləcəyi planlaşdırılır. Bununla da ildə təxminən 26 min ton karbon qazı emissiyasının qarşısı alınacaq və 12 milyon kubmetr təbii qaza qənaət ediləcək.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "CEİ Naxçıvan" MMC-nin daxil olduğu AGEC şirkətlər qrupunun ölkəmizdə icra etdiyi digər layihələr barədə də məlumat verildi.

Dövlətimizin başçısı və birinci xanım gücü 25 MVt olan "Qərbi Üfüq" Günəş-Elektrik Stansiyasında görülən işlərlə də tanış oldular.





Diqqətə çatdırıldı ki, "Enerso" MMC tərəfindən stansiyanın inşası ilə bağlı topoqrafik işlər artıq tamamlanıb, geoloji tədqiqat işləri isə davam edir. Cari ilin sonunadək tikinti işlərinə başlanılması nəzərdə tutulur. Layihənin bərpaolunan enerji mənbələri ərazisi kimi müəyyənləşdirilmiş 50 hektar sahədə həyata keçirilməsi nəzərdə tutulur. Stansiyanın istismara verilməsindən sonra illik təxminən 61 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq və bu, 21 minə yaxın ev təsərrüfatının enerji ilə təmin olunmasına imkan verəcək. Eyni zamanda ildə təxminən 26 min ton karbon qazı emissiyasının qarşısının alınacağı və 12 milyon kubmetr təbii qaza qənaət ediləcəyi proqnozlaşdırılır.

Ümumilikdə Naxçıvanda 688 hektar sahə Günəş-elektrik stansiyalarının tikintisi məqsədilə bərpaolunan enerji mənbələri ərazisi kimi müəyyən edilib.

Azərbaycanda bərpaolunan enerji mənbələri üzrə qoyuluş gücü 2070 MVt-dır. Bunun da 108 MVt-ı, yəni 5,2 faizi Naxçıvanın payına düşür. "Şəms 1" və "Qərbi Üfüq" stansiyalarının istifadəyə verilməsi ilə bu rəqəm 158 MVt olacaq.

## Prezident İlham Əliyev Naxçıvan Sənaye Parkının təməlini qoyub

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvan Sənaye Parkının təməlqoyma mərasimində iştirak ediblər.**





AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma Naxçıvan Sənaye Parkı barədə məlumat verdi.

Bildirildi ki, bu sənaye parkı Azərbaycan Prezidentinin 2024-cü ildə imzaladığı fərmanla yaradılıb. Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili məqsədilə ilkin olaraq ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, növbəti mərhələdə isə xarici və daxili infrastrukturun, o cümlədən elektrik və istilik enerjisi, qaz, su, rabitə, nəqliyyat, istehsal, inzibati, sosial və digər obyektlərin yaradılması nəzərdə tutulur. Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda yerləşən bu sənaye parkı 310 hektar ərazini əhatə edəcək. Artıq sənaye parkına potensial sahibkarların cəlb olunması istiqamətində bir sıra layihələr üzrə danışıqlar aparılır.

Ölkəmizdə hazırda 8 sənaye parkı (Sumqayıt Sənaye Parkı, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Pirallahı Sənaye Parkı, Ağdam Sənaye Parkı, Hacıqabul Sənaye Parkı, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, Balaxanı Sənaye Parkı) fəaliyyət göstərir. Bundan başqa, Gəncə şəhərinin və Şəmkir rayonunun inzibati ərazilərində yaradılacaq Qərb Sənaye Parkında infrastrukturun qurulması üçün texniki şərtlərin alınması prosesi aparılır.

Bu sənaye parklarında ümumilikdə 184 rezident qeydiyyata alınıb ki, onların da 101-i artıq fəaliyyət göstərir. İndiyədək rezidentlər tərəfindən 7,1 milyard manatdan çox investisiya cəlb edilib, 11 min 500-dən çox iş yeri yaradılıb.

Xatırladaq ki, 2026-cı il iyulun 1-nə olan məlumata görə, sənaye parklarında ümumilikdə 21,4 milyard manatlıq məhsul istehsal edilib, bunun da 6,7 milyard manatlıq hissəsi ixrac olunub.

## Prezident İlham Əliyev Naxçıvanda elektrik mühərrikli yeni avtobuslara baxıb, dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanış olub

**Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində istifadəyə veriləcək elektrik mühərrikli yeni avtobuslara baxıb, Naxçıvan Muxtar Respublikasının dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verdilər.

Əvvəlcə Prezident İlham Əliyevə Zəngəzur dəhlizi üzrə dəmir yollarının tikintisi layihələri barədə məlumat verildi. Bildirildi ki, bu layihələr yekunlaşdıqdan sonra dəmir yolunun buraxılış qabiliyyəti illik 15 milyon ton nəzərdə tutulur. Horadiz-Yuxarı Mərcanlı-Soltanlı stansiyalarını əhatə edən 30 kilometrlik hissə müvəqqəti istismara verilib və 2024-cü ilin mayından "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına yükdaşımalar həyata keçirilir. Bu günədək həmin istiqamət üzrə ümumilikdə 43 min ton yük daşınıb.

Naxçıvan dəmir yolu xəttinin layihələndirilməsinə və tikinti işlərinin icrasına 2025-ci ildən başlanılıb. Hazırda xəttin uzunluğu 188 kilometrdir, yeni layihəyə əsasən isə bu göstərici 194,2 kilometr təşkil edəcək. 10 stansiyanın və 3 sərnişin dayanacağı platformasının yenidən qurulması nəzərdə tutulur.

Hazırda Naxçıvan dəmir yolu xəttinin Salamməlik stansiyasından Ermənistanla dövlət sərhədinədək olan 7 kilometrlik hissəsi üzrə layihələndirmə işləri tamamlanıb və tikinti işlərinə başlanılıb. Ərazidə mühəndislik və infrastrukturun yaradılması işlərinin bir qismi yekunlaşıb, digər hissəsi isə davam edir.

*Ardı 3-cü səh.*



◆ Prezident İlham Əliyevin
Naxçıvan Muxtar Respublikasına səfəri

# 17-ci səfər

## Prezident İlham Əliyev Naxçıvanda elektrik mühərrikli yeni avtobuslara baxıb, dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanış olub

*Əvvəli 2-ci səh.*

Əraziyə hazırda 7 kilometrlik rels və 7 min ədəd şpal daşınıb. Burada sentyabrın sonunadək yolun üst quruluşunun 6,3 kilometrlik hissəsinin quraşdırılması planlaşdırılır. Sərhəddən 700 metr məsafədə yerləşən qalan hissədə isə minatəmizləmə işləri tamamlandıqdan və layihələrin uzlaşdırılması məqsədilə TRIPP marşrutu üzrə layihə hazır olduqdan sonra tikinti-quraşdırma işlərinə başlanılması nəzərdə tutulur. Eyni zamanda Sədərək stansiyasından Türkiyə ilə dövlət sərhədinədək olan hissənin gələcəkdə Türkiyə tərəfindən icra edilən Qars-İğdır-Dilucu dəmir yolu ilə texniki və layihə baxımından uyğunlaşdırılması planlaşdırılır. Hazırda qeyd olunan dəmir yolu xətti üzrə Türkiyə tərəfindən layihələndirmə işləri aparılır.

"Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident İlham Əliyevin ötən il imzaladığı sərəncama əsasən, şəhərin ictimai nəqliyyat sistemində sərnişindaşımanın yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə ölkəmizdə yığılan və uzunluğu 8,7 metr olan, hər biri 53 sərnişin tutumuna malik "BYD" markalı 60 avtobus alınıb, enerjidoldurma cihazları quraşdırılıb, avtobuslara xidmət





göstərilməsi üçün depo infrastrukturu təkmilləşdirilib.

Hərəkətin idarə olunması üçün rəqəmsal dispetçer və monitorinq sistemi quraşdırılıb, həmçinin avtobuslarda bank kartları, QR kod, "Apple Pay" və "Google Pay" vasitəsilə nağdsız ödəniş imkanları yaradılıb. Bu layihənin icrası ilə Naxçıvan şəhərində 9 marşrut xətti üzrə il ərzində 4,5 milyon sərnişinə yüksək səviyyədə xidmət göstərilə bilər. Monitorinq mərkəzi vasitəsilə avtobusların hərəkəti real vaxt rejimində izləniləcək. Bu da sərnişinlərin təhlükəsiz və fasiləsiz daşınmasına nəzarəti təmin edəcək.

"BakuBus" MMC-nin Naxçıvan şəhərində fəaliyyətə başlaması ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və ödəniş proseslərinin tam nağdsız formata keçirilməsinə mühüm töhfə verəcək.

Üç hektara yaxın ərazisi olan depoda zəruri infrastruktur yaradılıb, o cümlədən texniki baxış və təmir postları, avtomatlaşdırılmış uçot sistemli elektrikdoldurma stansiyası və saatda 15 avtobusun yuyulmasına imkan verən kompleks quraşdırılıb. Depo ikinövbəli iş rejimində fəaliyyət göstərəcək və 200 sürücü, 22 inzibati heyət işlə təmin ediləcək. Sürücülərin aylıq əməkhaqqı isə 1000 manatdan çox olacaq.

## Naxçıvan Regional DOST Mərkəzi istifadəyə verilib

**Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan DOST Agentliyinin Naxçıvan Regional DOST Mərkəzinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev mərkəzdə yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu mərkəzdə əhaliyə 164 sosial xidmət göstəriləcək. Ümumilikdə 117 işçinin və 50 könüllünün fəaliyyət göstərəcəyi mərkəzdə gün ərzində orta hesabla 500-600 vətəndaşın qəbulu nəzərdə tutulur.

Bütün xidmətlər "Bir pəncərə" prinsipi əsasında təşkil olunub və Naxçıvan sakinlərinə rahat, operativ və əlçatan şəkildə təqdim ediləcək. Bu yanaşma müxtəlif sosial istiqamətlər - pensiya, əmək və məşğulluq, sosial müavinətlər, əlillik, övladlığagötürmə və digər sosial xidmətlərin vahid məkanda, şəffaf formada göstərilməsinə imkan yaradır.

Əlilliyi olan şəxslərin mərkəzdə tibbi-sosial ekspertizası, onların fərdi ehtiyaclarına uyğun reabilitasiya vasitələri ilə təminatı, eyni zamanda reabilitasiya xidmətlərindən yararlanmaları üçün ixtisaslaşmış reabilitasiya müəssisələrinə göndərişlərin rəsmiləşdirilməsi də icra ediləcək.

Dövlətimizin başçısı və birinci xanım qabaqcıl beynəlxalq istehsalçı şirkətlərin məhsulları olan protezlərə də baxdılar. Bu protezlər istifadəçilərə təbii fizioloji, sərbəst və təhlükəsiz hərəkət, müxtəlif səth və sürətlərə uyğunlaşma, həmçinin sosial həyata və əmək fəaliyyətinə daha sürətli inteqrasiya imkanı yaradır. İndiyədək 500-dən çox hərbçiyə 620 yüksəktexnologiyalı protez təqdim olunub. Həmçinin yüksəktexnologiyalı reabilitasiya və tibbi-sosial xidmətlər






sayəsində müharibə ilə əlaqədar əlilliyi olan 300-dək şəxs əvvəlki sağlamlığına qovuşub.

Ölkəmizdə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksəktexnologiyalı protezlərlə təminatı üzrə işlər nəcib fəaliyyəti ilə seçilən Heydər Əliyev Fondunun təşəbbüsü ilə başladılıb.

Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatının gücləndirilməsi üçün dövlətimiz tərəfindən həyata keçirilən sosial müdafiə siyasəti nəticəsində reabilitasiya vasitələrinin çeşidinin sayı 57-dən 130-a çatdırılıb. Əlilliyi olan şəxslər bu ilin əvvəlindən bəri 300 minədək müxtəlif növ reabilitasiya vasitələri ilə təmin edilib.



Dövlətimizin başçısı və birinci xanım nazirliyin inklüziv mərkəzlərinin benefisiarları tərəfindən hazırlanmış bədii oyma, xalçaçılıq, dulusçuluq, təsviri incəsənət, vitraj, floristika və digər sənət növləri üzrə əl işlərindən ibarət sərgiyə baxdılar. Həssas qruplardan olan şəxslərin yaradıcılıq potensiallarının üzə çıxarılması və iqtisadi fəallıqlarının dəstəklənməsi məqsədilə yaradılmış "dostart.az" portalı vasitəsilə həmin əl işlərinin onlayn satışı həyata keçirilir və bu təşəbbüs onların əmək bazarına inteqrasiyasına mühüm töhfə verir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Naxçıvan Regional İnformasiya Mərkəzinin bazasında yaradılması nəzərdə tutulan Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin layihəsi də təqdim edildi.

Qeyd olundu ki, əlilliyi olan şəxslərə hazırda 13 istiqamət üzrə göstərilən sosial bacarıqların inkişafı xidmətlərinin yeni mərkəzdə daha da genişləndirilərək 20-yə çatdırılması nəzərdə tutulur.

Son illərdə ölkəmizdə həyata keçirilən sosial islahatlar dünya səviyyəsində yüksək qiymətləndirilib və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən 300-dən artıq mükafat və sertifikatla təltif olunub. Onların arasında "Hamı üçün inklüziv və bərabər sosial təminat xidmətləri" təşəbbüsünə görə BMT-nin Dövlət Xidmətləri Mükafatı da var.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış DOST mərkəzləri sosial xidmətlərin göstərilməsində keyfiyyətcə yeni mərhələnin formalaşmasına səbəb olub. Bu mərkəzlərdə indiyədək vətəndaşlara 164 növ xidmət, ümumilikdə isə 4,6 milyon sosial xidmət göstərilib, xidmətlərdən məmnunluq səviyyəsi isə təxminən 99 faiz olub.

Hazırda DOST şəbəkəsinin ölkə üzrə genişləndirilməsi istiqamətində işlər davam etdirilir. 2026-2027-ci illərdə Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində DOST qəbul şöbələrinin yaradılması, 2030-cu ilədək isə ölkə üzrə 18 DOST mərkəzinin, o cümlədən 60 şöbə və məntəqədən ibarət geniş xidmət şəbəkəsinin formalaşdırılması nəzərdə tutulur.

## Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan komando hərbi hissələrinə Döyüş bayraqlarının verilməsi mərasimində iştirak edib



**Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının verilməsinə həsr olunmuş mərasimdə iştirak ediblər.**

*Ardı 4-cü səh.*



◆ Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri

# 17-ci səfər

## Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan komando hərbi hissələrinə Döyüş bayraqlarının verilməsi mərasimində iştirak edib

*Əvvəli 3-cü səh.*

AZƏRTAC xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordu Qərargahının ərazisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Müdafiə Nazirliyinin rəhbər heyəti qarşıladı.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov yeni yaradılan hərbi hissələr barədə Ali Baş Komandana məruzə etdi.

Prezident İlham Əliyevə hərbi hissələrə Döyüş bayraqlarının təqdim edilməsi mərasiminə hazırlıq barədə məruzə olundu.

Müzəffər Ali Baş Komandan şəxsi heyəti salamladı.

Əməliyyat (komando) hərbi hissələrinin komandirləri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məruzə etdikdən sonra Döyüş bayraqlarını qəbul edərək sıraya durdular.

Dövlətimizin başçısı və birinci xanım komando hərbi hissələrinin şəxsi heyəti ilə xatirə fotosu çəkdirdilər.

Sonda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya ordumuzun arsenalında olan silah sistemləri və hərbi-texniki vasitələr barədə məlumat verildi.









## "Naxçıvan" Mehmanxana Kompleksinin təməli qoyulub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də "Naxçıvan" Mehmanxana Kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi. Bildirildi ki, kompleksin ümumi sahəsi 1 hektardan çox olacaq. Ərazidə yeddimərtəbəli mehmanxana binası ilə yanaşı, texniki binalar və köməkçi sahələr də yaradılacaq. Mehmanxanada eyni vaxtda 307 qonaq qala biləcək. Burada 131 otaq, o cümlədən fiziki məhdudiyyətli şəxslər üçün otaqlar nəzərdə tutulub. Mehmanxana binasında müxtəlif ictimai-iaşə obyektləri, kafe, restoran, tədbir və ziyafət zalı yaradılacaq. Bu zal ziyafət zamanı 350, konfrans vaxtı isə 500 yerlik olacaq. Burada həmçinin görüş, iclas və iş otaqları, idman zalı da yaradılacaq. Eyni zamanda yeraltı avtodayanacağın inşası da nəzərdə tutulur.

## Prezident İlham Əliyev "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma yeni Baş Plan, şəhərin gələcək inkişafı üzrə müəyyən edilmiş hədəflər və görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş Plan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu və beynəlxalq məsləhətçi şirkət "Chapman Taylor" tərəfindən hazırlanıb.

Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Naxçıvan şəhərinin müstəqillik dövründə ilk dəfə hazırlanan yeni Baş Planı onun perspektivdə məkan inkişafının vahid strateji baxışını müəyyən edir. Konsepsiya şəhər mərkəzinin yenilənməsi, rekreasiya zonalarının genişləndirilməsi, dayanıqlı mobilliyin təşviqi, yaşayış və sosial infrastrukturun gücləndirilməsi və turizm potensialının daha səmərəli reallaşdırılması əsasında formalaşdırılıb.

Şəhərin əsas inkişaf istiqamətlərindən biri onun mərkəzi hissəsinin yenidən formalaşdırılmasıdır. Bu məqsədlə 74 hektar ərazini əhatə edən mərkəzi rayonun müfəssəl planı, həmçinin bu rayon daxilində mövcud planlaşdırma strukturu qorunmaqla 12,5 hektarlıq ərazini əhatə edən hissə üçün yeni memarlıq konsepsiyası hazırlanıb. Layihədə şəhər mərkəzinin daha canlı, yığcam və əlçatan məkana çevrilməsi nəzərdə tutulur. Konsepsiyaya əsasən, tarixi əhəmiyyət kəsb etməyən köhnəlmiş tikililərin mərhələli şəkildə yenilənərək müasir çoxmərtəbəli yaşayış və çoxfunksiyalı binalarla əvəzlənməsi, ərazidə yeni inzibati kompleksin yaradılması, mərkəzi meydanın isə yeni landşaft və kiçik memarlıq elementləri əlavə edilməklə insanyönümlü ictimai məkana çevrilməsi təklif edilir. Bütün bu yanaşmalar nəticəsində yaşayış, iş, xidmət, istirahət və ictimai funksiyaların bir-birini tamamladığı müasir şəhər mərkəzi formalaşdırılacaq.

Ekoloji infrastrukturun şəhərin ayrılmaz hissəsinə çevrilməsini hədəfləyən Baş Planın icrası dövründə mövcud yaşıllıq sistemi də genişləndiriləcək, Naxçıvançay boyunca ərazi şəhər həyatına inteqrasiya olunacaq, burada yeni parklar, istirahət zonaları və ictimai məkanlar yaradılacaq. Nəticədə adambaşına düşən yaşıllıq sahəsinin 15 kvadratmetrdən 27 kvadratmetrə çatdırılması nəzərdə tutulur.

Şəhər mobilliyinə yanaşma da yeni prinsiplər üzərində qurulub. Dayanıqlı, ekoloji təmiz nəqliyyat həllərinin tətbiqini dəstəkləyən konsepsiyaya əsasən, küçə-yol şəbəkəsinin ümumi uzunluğu 188,4 kilometr, velosiped infrastrukturunun uzunluğu isə 122 kilometr təşkil edəcək. Bu, ümumi küçə-yol şəbəkəsinin 65 faizdən çoxunun velosiped hərəkəti üçün uyğunlaşdırılması deməkdir.

Baş Planda Naxçıvanın zəngin tarixi-mədəni irsi və əlverişli coğrafi mövqeyi şəhərin turizm potensialını formalaşdıran əsas üstünlüklər kimi dəyərləndirilir. Tarixi irsin qorunması ilə yanaşı, xidmət sahələrinin genişləndirilməsi və şəhər mühitinin keyfiyyətinin yüksəldilməsi turizm sektorunun rəqabətqabiliyyətliliyinin artırılmasına imkan yaradacaq.

Naxçıvanın gələcək inkişafı şəhərin artım potensialı nəzərə alınmaqla planlaşdırılıb. Baş Plana əsasən, göstərilən müddət ərzində məskunlaşma ərazisinin 1831 hektardan 2630 hektara çatdırılması nəzərdə tutulur. Bununla şəhərin mövcud ərazisinin təxminən 44 faiz genişlənəcəyi, əhali sayının isə 97 min 200 nəfərdən 130 min nəfərə çatacağı proqnozlaşdırılır. Əhalinin sıxlığı nəzərə alınaraq yaşayış fondunun 3,9 milyon kvadratmetrə çatdırılması hesablanıb. Bu, orta hesabla adambaşına 30 kvadratmetr yaşayış sahəsinin təmin olunmasına imkan verəcək və yeni yaşayış məhəllələrinin sosial, nəqliyyat və mühəndis infrastrukturu ilə kompleks şəkildə formalaşdırılmasına şərait yaradacaq.

Şəhərin böyüməsi ilə paralel olaraq sosial infrastruktur da genişləndiriləcək. Təhsil və səhiyyə xidmətləri nəzərə alınaraq, ümumtəhsil müəssisələrinin tutumu 23 min 400, məktəbəqədər təhsil müəssisələrinin tutumu 7 min 800, xəstəxanaların çarpayı fondu isə 650 yerə çatdırılacaq. Xidmət, nəqliyyat və logistika, sənaye, tikinti, turizm və aqrar sektorların inkişafı hesabına məşğulluq səviyyəsinin də 40 faizə yaxın artaraq 78 min nəfərə çatacağı gözlənilir.

Beləliklə, Orta dəhlizin strateji əhəmiyyətli hissəsi olan Naxçıvan şəhəri 2044-cü ilədək daha böyük potensiala malik yaşayış məkanı kimi inkişaf edəcək. Şəhərin tarixi-mədəni irsini müasir şəhərsalma prinsipləri ilə uzlaşdıran yeni Baş Plan onun dayanıqlı, inklüziv və insanyönümlü regional mərkəz kimi inkişafının strateji əsasını formalaşdıracaq.

◆ **Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri**

# 17-ci səfər

## Mömínə xatun türbəsində görülən bərpa işləri ilə tanışlıq

**Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində Mömínə xatun türbəsində görülən bərpa və konservasiya işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, "Atelier Erich Pummer gmbh" şirkətinin direktoru Erix Pummer dövlətimizin başçısına və birinci xanıma türbədə görülən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyevin 2023-cü ildə imzaladığı sərəncamla təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikadakı tarix-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi və bərpa-konservasiya işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Mömínə xatun türbəsində görülən işlər də bu proqrama uyğun icra olunur.

Yerli və xarici ekspertlər tərəfindən 2023-2025-ci illərdə aparılmış baxış və tədqiqatlar nəticəsində türbədə bərpa və konservasiya işlərinin görülməsi zəruri hesab edilib.

Dövlətimizin başçısı dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan Mömínə xatun türbəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında 2025-ci ildə sərəncam imzalayıb.

Azərbaycan memarlığının görkəmli abidələrindən biri olan bu türbə 1186-cı ildə memar Əcəmi Naxçıvani tərəfindən inşa edilib. Tarixi mənbələrə əsasən, türbə Atabəylər Memarlıq Kompleksinin tərkib hissəsi olub. Dövrümüzədək kompleksdən yalnız bu abidə qorunub saxlanılıb. Abidənin ümumi hündürlüyü 34 metr olub. Lakin sonralar xarici örtüyünün 8 metrlik hissəsi dağıldığından hazırda onun hündürlüyü təxminən 26 metrdir. Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir.

Abidənin memarlıq xüsusiyyətləri və əhəmiyyəti nəzərə alınaraq Avstriyanın bu sahədə çoxillik təcrübəsi olan şirkəti ilə müqavilə bağlanıb, abidənin mövcud vəziyyəti qiymətləndirilərək hərtərəfli tədqiq və ölçmə işləri aparılıb. Hazırda abidənin bərpası, damın yenidən qurulması, məqbərədə mövcud əyilmənin ölçülməsi və nəzarətdə saxlanılması, həmçinin drenaj sisteminin qurulması ilə bağlı işlər görülür.

Mömínə xatun türbəsi 2001-ci ildə dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət mühafizəsinə götürülüb. 1998-ci ildə isə UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilib.

Qeyd edək ki, bu layihənin icrası tarixi irsimizin qorunması və təbliği baxımından çox mühüm əhəmiyyət daşıyır. Azərbaycan milli memarlığının möhtəşəm abidəsi,








Şərq memarlığının isə incilərindən biri olan Mömínə xatun türbəsi böyük tarix və mədəniyyət yadigarımızdır. Görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin yaratdığı bu nadir və monumental sənət nümunəsi kompozisiya həlli ilə seçilir. Türbə həmçinin Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani göstəricisidir.

## Naxçıvanda memar Əcəmi Naxçıvaninin abidəsi açılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, abidənin müəlliflərindən biri Xalq rəssamı Salxab Məmmədov dövlətimizin başçısına və birinci xanıma abidə barədə məlumat verdi.

Qeyd edək ki, bu il Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyi tamam olur.

Prezident İlham Əliyev Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi, həmçinin onun abidəsinin ucaldılması barədə ötən il sərəncam imzalayıb.





Abidə kompleksi böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin zəngin memarlıq irsini daha müasir yanaşma əsasında təqdim etmək məqsədilə yaradılıb.

Müəllifləri Xalq rəssamları Salxab Məmmədov, Əli İbadullayev və Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədov olan heykəlin hündürlüyü 270, postamentin hündürlüyü 90, ümumilikdə abidənin hündürlüyü isə 385 santimetrdir. Heykəl bürüncdən, postament qranitdən hazırlanıb. Kompleksin ərazisində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb. Orta əsrlər Azərbaycan memarlığının inkişafında mühüm rol oynayan memar Əcəmi Naxçıvaninin xatirəsinin əbədiləşdirilməsi ilk növbədə Azərbaycan dövlətinin tarixi şəxsiyyətlərimizin parlaq irsinə göstərdiyi diqqətin təzahürüdür. Bu layihənin icrası, eyni zamanda onların fəaliyyətinin gələcək nəsillərə çatdırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biridir.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə qeyd olunub. Hazırda isə onun 900 illiyinin UNESCO çərçivəsində qeyd edilən yubileylər siyahısına daxil edilməsi bütövlükdə çoxəsrlik mədəni zənginliklərimizin beynəlxalq səviyyədə daha geniş təbliğində vacib rol oynayır.

## Naxçıvan şəhərində sosial evlər kompleksinin təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verdi.

Bildirildi ki, Naxçıvan şəhərində çoxmənzilli yaşayış binalarının (güzəştli mənzillər) tikintisi üçün 5 hektara yaxın torpaq sahəsi ayrılıb.

Kompleksdə 6 və 7 mərtəbəli 16 bina inşa ediləcək. Burada 93 birotaqlı, 37 ikiotaqlı, 351 üçotaqlı, 37 dördotaqlı olmaqla, ümumilikdə 518 mənzil olacaq.

Yaşayış kompleksində sakinlərin rahatlığı üçün zəruri infrastruktur yaradılacaq. Burada uşaq bağçasının və digər iaşə obyektlərinin tikintisi nəzərdə tutulur. Kompleks elektrik enerjisi, qaz, su və çirkab suların axıdılması sistemləri ilə təchiz ediləcək. Ərazidə yolların və səkilərin salınması, abadlaşdırma və yaşıllaşdırma işlərinin görülməsi nəzərdə tutulub.

Dövlətimizin başçısına Mənzil İnşaatı Dövlət Agentliyinin indiyədək icra etdiyi və nəzərdə tutulan layihələr barədə də məlumat verildi.



◆ Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri

# 17-ci səfər

## Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan Televiziyasına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

***Jurnalist: Xoş gördük, cənab Prezident. Əvvəlcə sıx qrafikinizə rəğmən, müsahibəyə vaxt ayırdığınız üçün təşəkkür etmək istərdim. İcazənizlə, suallara keçərdik.***

**Prezident İlham ƏLİYEV:** Buyurun.

***Jurnalist: Bu Sizin Naxçıvana 17-ci səfərinizdir və bu səfər çərçivəsində də olduqca mühüm tədbirlərə şahidlik etdik. Ümumilikdə səfərin təfərrüatlarını, yekunlarını və nəticələrini necə qiymətləndirmək olar?***

**Prezident İlham ƏLİYEV:** Əslində, səfərim və səfər zamanı iştirak etdiyim tədbirlər özlüyündə bir göstəricidir. Bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir. Qeyd etdiyiniz kimi, mən Prezident kimi 17-ci dəfədir ki, Naxçıvana səfər edirəm və hər səfərimin də böyük mənası və gözəl nəticələri vardır.

Bu illər ərzində bir çox önəmli layihələr icra olundu, Naxçıvanın ümumi inkişafı təmin edildi. Bugünkü tədbirlər də bir növ görülən işlərin davamıdır və təbii ki, bundan sonra da lazımi qərarlar veriləcək və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı təmin ediləcək.

Bu illər ərzində, əlbəttə ki, ilk növbədə Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə də böyük işlər görüldü və bu gün bayrağın təqdimetmə mərasimində bir daha Naxçıvanın hərbi gücü özünü göstərdi, həm texnika ilə təchizat, - özü də ən müasir texnika ilə, - həm də yeni komando qüvvələrinin yaradılması. Bu da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir.

Bildiyiniz kimi, Naxçıvanda mənim sərəncamımla Əlahiddə Ordu yaradılmışdır. Bu ordu, təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək.

Digər tədbirlərə gəldikdə, əlbəttə ki, burada xüsusilə iş yerlərinin yaradılması ilə bağlı görülən və görüləcək işləri qeyd edə bilərəm. Bu gün Naxçıvan Sənaye Parkının təməli qoyuldu. Azərbaycanda mənim göstərişimlə bir çox sənaye parkları yaradılmışdır və onların arasında ərazi nöqteyi-nəzərindən Naxçıvan Sənaye Parkı Sumqayıt Sənaye Parkından sonra ikincidir. Dediyim kimi, təməl daşı qoyuldu və əminəm ki, tezliklə bu sənaye parkında artıq praktiki işlər başlanacaqdır.

Eyni zamanda bu parkın tərkib hissəsi olaraq 300 meqavat gücündə istilik-elektrik stansiyası inşa ediləcək. Onu bildirməliyəm ki, bu gün Naxçıvanın generasiya gücü təqribən 200 meqavatdır. Təkcə bir stansiya bunu 1,5 dəfə artıracaq. Təbii ki, bu stansiyanın iki məqsədi var: birincisi, Naxçıvan Muxtar Respublikasını dayanıqlı enerji ilə təmin etmək, ikincisi, ixrac məsələləridir.

Bu gün yerləşdiyimiz regionda əgər elektrik enerjisi ilə problemi olmayan nadir ölkələr varsa, Azərbaycan onların sırasında birincidir. Çünki bu və ya digər səbəblər üzündən bölgəmizdə enerji böhranı yaşanmaqdadır və bu böhran dərinləşə bilər. Həm bölgəmizdə gedən müharibələr, həm artan risklər, enerji daşıyıcılarının nəqli ilə bağlı nəqliyyat zəncirlərinin qırılması və digər amillər. İstisna edilmir ki, gələcəkdə yeni xoşagəlməz hadisələr baş verməsin. Ona görə burada Azərbaycanın xüsusi rolu danılmazdır. Biz elə etməliyik ki, Naxçıvanın davamlı və dayanıqlı enerji təminatı heç vaxt pozulmasın.



Bu məqsədlər üçün vaxtilə yenə də mənim təşəbbüsümlə biz İran İslam Respublikası ilə qaz mübadiləsi sazişini imzaladıq. Bu sazişə əsasən, İrandan Azərbaycana qaz kəməri çəkilmişdir və eyni zamanda Azərbaycanın Astara rayonundan İran ərazisinə qaz nəqli təmin edilmişdir. Yəni biz Naxçıvanı mübadilə yolu ilə 100 faiz qazla təmin etdik.

Bununla paralel olaraq, qazlaşmanı apardıq. Artıq neçə ildir ki, - təqribən deyə bilərəm, bəlkə 15 il, bəlkə ondan da çox, - Naxçıvanda qazlaşma 100 faizdir. Azərbaycanda ümumilikdə qazlaşmanın səviyyəsi 96 faizdir, bu da çox böyük rəqəmdir. Ancaq Naxçıvanda bu, artıq 100 faizdir. Yəni bu da enerji təhlükəsizliyinə yönəlmiş bir addım idi.

Burada bir çox su və Günəş-elektrik stansiyaları, modul tipli elektrik stansiyası inşa edilmişdir. Yəni enerji təhlükəsizliyi fiziki təhlükəsizlikdən sonra ikinci vacib amildir. Bu gün dediyim kimi, həm 300 meqavat gücündə istilik elektrik stansiyasının təməli qoyuldu və 50 meqavat gücündə iki Günəş-elektrik stansiyasının tikintisi ilə tanış oldum.

Naxçıvanda Günəş enerjisinin potensialı çox böyükdür. Aparılan monitorinq və dəqiq təhlil əsasında Günəş elektrik enerjisinin istehsalı üçün Azərbaycan ərazisində ən əlverişli məkan Naxçıvandır. Buna görə artıq 600 hektardan çox ərazi müəyyən edildi və orada yüzlərlə meqavat gücündə Günəş-elektrik stansiyaları inşa ediləcək.

Sevindirici hal ondan ibarətdir ki, bizdə bərpaolunan enerji növlərinin yaradılması ilə bir qayda olaraq, özəl sektor məşğuldur. Mənə bu gün təqdim edilən məlumat onu göstərir ki, bu layihələr iqtisadi cəhətdən, yəni gəlirlilik nöqteyi-nəzərindən investorlar üçün cəlbedicidir.

Yəni burada həm Azərbaycanda investisiya iqliminin müsbət olması, eyni zamanda bərpaolunan enerji növlərinin inkişafına dövlət dəstəyi və bütövlükdə bizim artan potensialımız, o cümlədən ixrac imkanlarımız mühüm rol oynayır. Çünki qeyd etdiyim kimi, bu gün Naxçıvan elektrik enerjisi ilə təminat baxımından tam sığortalıdır.

Dediyim 200 meqavat generasiya gücü Naxçıvanın bugünkü tələbatından artıqdır. Amma biz gələcəyə baxmalıyıq. Naxçıvanın sürətli inkişafı davam etdiriləcək, o cümlədən dövlət proqramının icrası nəticəsində. Bu proqram da mənim sərəncamımla qəbul edilmişdir. Naxçıvandan çox böyük həcmdə elektrik enerjisinin ixracı da nəzərdə tutulacaq.

Digər vacib sahə, - yəni o sahə də bu gün səfərimin proqramında öz əksini tapmışdır, - Naxçıvanın tarixi-mədəni abidələrinin qorunmasıdır. Bildiyiniz kimi, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir. Naxçıvan qədim Atabəylər dövlətinin paytaxtı olub və o dövrə, ondan sonrakı dövrə aid olan bir çox abidələr dünya əhəmiyyətli abidələrdir.

Möminə xatun məqbərəsinin bərpası ilə bağlı görülən işlər bu gün mənə təqdim edildi. Eyni zamanda digər tarixi-mədəni obyektlərin konservasiyası, qorunması və bərpası nəzərdə tutulur. Möminə xatun məqbərəsinin müəllifi məşhur naxçıvanlı memar Əcəmi Naxçıvaninin şərəfinə abidə ucaldıldı. O abidənin arxasında onun ölməz əsəri Möminə xatun məqbərəsi yerləşir.

Bütün bu məsələlər böyük əhəmiyyət daşıyır. Çünki təbii ki, sosial-iqtisadi inkişaf, enerji təhlükəsizliyi vacib məsələlərdir. Ancaq bütün bu görülən işlərin təməlində bizim milli kimliyimiz dayanır, milli ruhumuz dayanır, mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, tariximiz dayanır. Azərbaycan xalqı xoşbəxt xalqdır. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edə bilərik.

Naxçıvan eyni zamanda Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib. Yəni bu bölgənin zəngin tarixi, bu bölgədə yaşayan insanların mərdliyi, doğma Vətənə bağlılığı və eyni zamanda Naxçıvanın strateji yerləşməsi və imkanları, burada icra olunan və olunacaq layihələr bu gün təkcə Azərbaycan üçün deyil, - halbuki birinci növbədə Azərbaycan üçün, - geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir.

Məsələn, əgər biz nəqliyyat dəhlizlərindən danışırıqsa, bu gün təbii ki, Naxçıvanın timsalında yeni nəqliyyat damarlarını görürük. Biz bunu yaradırıq. Bunu yaratmaq üçün bir çox işlər görülüb və görüləcək. Ona görə bu məsələlərə daim diqqət göstərilir və göstəriləcək.

Bu gün eyni zamanda sosial təminatla əlaqədar DOST Mərkəzinin açılışını qeyd edə bilərəm. Onun yanında "ASAN xidmət" mərkəzi dayanır. O da vaxtilə mənim göstərişimlə yaradılmışdır ki, insanlara daha gözəl xidmət göstərilsin.

Yəni proqramın tərkib hissəsinə baxmaq kifayətdir ki, burada hər kəs görsün ki, Naxçıvanın inkişafı reallıqdır. Onu da əlavə edə bilərəm ki, bu yaxınlarda - bir neçə ay bundan əvvəl qəbul edilmiş kənd təsərrüfatının inkişafına dair Dövlət Proqramında da Naxçıvanın xüsusi yeri var, payı var, lazımi vəsait nəzərdə tutulub. O cümlədən kənd təsərrüfatının inkişafı üçün vacib olan amil - suvarma layihələri icra edilir. Bir çox artezian quyuları qazılacaq, müasir suvarma sistemləri quraşdırılacaq. Bu gün suvarılmayan torpaqlara su veriləcək. Beləliklə, muxtar respublikanın inkişafı daha sürətli və hərtərəfli olacaq.

***Jurnalist: Cənab Prezident, budəfəki səfər həm də yeni reallıqlar şəraitində baş tutur. Bu reallıqlardan ən ümdəsi yəqin ki, Zəngəzur dəhlizi ilə bağlıdır. Hansı ki, müharibədən dərhal sonra Siz onun mütləq açılacağını bəyan etmişdiniz, kimin onu istəyib-istəməməsindən asılı olmayaraq. İndi Naxçıvanın dəmir yolunun və Zəngəzur dəhlizinin bərpası və açılması ilə bağlı işlər hansı mərhələdədir?***

**Prezident İlham ƏLİYEV:** Zəngəzur dəhlizinin yaradılması bildiyiniz kimi, bizim təşəbbüsümüz olub. Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq.

Təbii ki, yadınızdadır, İkinci Qarabağ müharibəsinin başa çatması ilə əlaqədar üçtərəfli Bəyanat imzalanmışdır - Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri. Əslində, bu, Ermənistan üçün kapitulyasiya aktı idi, çünki Ermənistan təslim oldu. O vaxt hələ işğal altında olan, - müharibə yolu ilə hələ biz o bölgələri azad etməmişdik, - Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Təbii ki, Ermənistan bunu könüllü etməmişdir, biz onu məcbur etdik. Kimisə müharibə şəraitində məcbur edirsənsə, deməli, həmin o tərəf kapitulyasiyaya uğrayır. Yəni bu termində hər hansı bir alçaldıcı, yaxud da ki, təhqiramiz bir məna axtarmaq lazım deyil. Bu, sadəcə olaraq, reallıqdır. Biz tarixi həm olduğu kimi bilməliyik, həm unutmamalıyıq və tarixin təhrifinə, o cəhdlərə heç vaxt imkan verməməliyik. O vaxt - noyabrın 9-da Şuşa işğaldan azad olunandan sonra Rusiya Prezidentinin vasitəsilə üçtərəfli danışıqlar gedirdi. Mən qəti təkid edirdim ki, imzalanacaq bəyanatda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhliz mütləq öz əksini tapmalıdır. Ermənistan tərəfi buna razılıq vermək istəmirdi. Ancaq onun o qədər də böyük alternativləri də yox idi. Müharibə davam etdirilsəydi, əlbəttə, biz də itkilər verəcəkdik, amma Ermənistan daha çox itki verəcəkdi. Çünki onların qoşunları, demək olar ki, mühasirədə idi və onları məhv etmək faktiki olaraq tam mümkün idi. Ona görə bunu istəməsələr belə Ermənistan buna razılıq verdi və o bəyanat hamıya bəllidir, orada xüsusi bir bənd var.

Ancaq İkinci Qarabağ müharibəsindən keçən 5 il ərzində Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir praktiki addım atılmamışdır. Dəfələrlə biz bu məsələni həm Rusiyaya, həm Ermənistana çatdırırdıq ki, vaxt gedir, bu bəyanat, onun vacib hissəsi icra edilmir və bu, dözülməz haldır. Müxtəlif vaxtlarda müxtəlif cavablar alırdıq, bu barədə çox danışmaq istəmirəm. Fakt odur ki, Ermənistan bunu hər cür uzatmağa çalışırdı. Rusiya tərəfi isə ya bunu təmin edə bilmirdi, ya da ki, hansısa başqa səbəblər var idi. Yəni fakt o idi ki, keçən ilin avqust ayına qədər məsələ dondurulmuş vəziyyətdə idi.

Amerika Birləşmiş Ştatlarında bu məsələyə yaxınlaşmağa başlayanda, - təqribən keçən ilin yaz aylarından, yazın əvvəlində başlanmış təmaslar nəticəsində artıq bu prosesə start verilmişdir, - təbii ki, Ermənistan-Azərbaycan normallaşma prosesinə öz töhfələrini verməyə çalışırdılar, buna hazır olduqlarını bildirirdilər. Təbii ki, bizim bir neçə önəmli şərtimiz var idi, o cümlədən Zəngəzur dəhlizi.

Nəticə etibarilə 2025-ci il avqustun 8-də tarixi Vaşinqton Zirvə Görüşündə bu məsələ öz həllini tapdı. TRIPP adını daşıyan bu layihənin icrasına artıq start verilmişdir. Bu yaxınlarda, üç gün bundan qabaq - avqustun 8-də Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək. Yəni bu, məsələnin tarixçəsidir.

Eyni zamanda İkinci Qarabağ müharibəsi başa çatar-çatmaz biz dərhal həm dəmir yollarının, həm də avtomobil yollarının bərpasına başladıq, o cümlədən Naxçıvana doğru gedən yolların tikintisinə. Bu gün Horadiz-Ağbənd avtomobil yolu demək olar ki, hazırdır. Bir sıra xırda məsələlər qalıb. Dəmir yolunun tikintisi də sürətlə gedir. Biz bu layihəni hər an sürətləndirə bilərik. Sadəcə olaraq, Ermənistan hissəsi hazır olmadığı üçün buna lüzum görmürük. Çünki investisiyaları, sərmayələri daha vacib və təcili məsələlərin həllinə yönəltmək üçün.

Ancaq istənilən halda gələn il dəmir yolu da Ermənistan sərhədinə gəlib çatacaq. O ki qaldı Naxçıvan dəmir yolunun tikintisinə, hazırda işlər gedir. Mənim göstərişimlə Nəqliyyat Nazirliyi bu işlə məşğuldur. Azərbaycan Dəmir Yolları Ordubad istiqamətində inşa işlərinə başlamışdır və olmayan hissələr yenidən tikiləcək. İki hissə mövcud deyildi, hər ikisi də Ermənistan sərhədinə yaxındır - biri Ordubad, ikincisi isə Sədərək rayonlarının ərazisindədir. Hər iki hissənin uzunluğu o qədər də böyük deyil, təqribən 3-5-7 kilometrdir. Qalan dəmir yolu isə prinsipcə işlək vəziyyətdədir və bu gün də ondan istifadə edilir və edilə bilər. Sadəcə olaraq, bu gün mövcud olan dəmir yolunun yükaşırma qabiliyyəti 1,5 milyon tondur. İlkin mərhələ üçün Zəngəzur dəhlizinin və ümumiyyətlə, "Şərq-Qərb" dəhlizinin bir qolu olan bu yolun fəaliyyətə başlaması kifayətdir. Amma bizim istəyimiz ondan ibarətdir ki, bu nəqliyyat dəhlizindən ən azı 15 milyon ton yük keçsin. Onun üçün bu gün mövcud olan dəmir yolu yenidən qurulmalıdır, reabilitasiya edilməlidir. Bu gün mənə verilən məlumat və təqdimat çox vacib idi. Mənim də göstərişlərim ondan ibarət idi ki, vaxt itirmək lazım deyil, Azərbaycan öz vəsaiti hesabına bu dəmir yolunu tam işlək və 15 milyon ton yükaşırma qabiliyyətinə malik olan vəziyyətə çatdıra bilər və çatdırmalıdır.

Onu da bildirməliyəm ki, bir çox beynəlxalq qurum, bəzi ölkələr bu yola maraq göstərir, xüsusilə Azərbaycan dəmir yollarının Naxçıvan seqmentinə. Onlardan biri Avropa İttifaqıdır. Avropa İttifaqının nümayəndələri Naxçıvana ezam edilmişdir. Burada yerlərdə vəziyyətlə tanış olmuşlar və onlar da bu dəhlizin iştirakçıları olmaq istəyirlər.

Biz prinsip etibarilə buna etiraz etmirik. Bizim mövqeyimiz ondan ibarətdir ki, Azərbaycanın əsas hissəsində yerləşən ərazilərdə Azərbaycan Dəmir Yolları artıq bütün işləri yekunlaşdırır və burada hər hansı bir xarici iştiraka ehtiyac yoxdur. O ki qaldı Naxçıvan dəmir yolunun reabilitasiyasına, burada prinsip etibarilə beynəlxalq konsorsium yaradıla bilər. Təbii ki, nəzarət paketi Azərbaycan dövlətinə məxsus olmaq şərti ilə beynəlxalq konsorsium investorlardan ibarət ola bilər və biz buna açığıq. Olmasa da, biz özümüz bu yolu çəkəcəyik. Bizim indi hansısa maliyyə problemlərimiz yoxdur. Olsaydı belə bu önəmli layihəyə hər zaman biz vəsait tapardıq. Amma biz hesab edirik ki, bu yolu beynəlxalq aktorlar və potensial yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə Naxçıvan dəmir yolu layihəsi məhz dediyim kimi, bir neçə şirkətdən ibarət konsorsium tərəfindən inşa edilə bilər.

Bu məsələ ilə bağlı bir neçə ölkədən bizə müəyyən mesajlar daxil olub. Hələ ki, bu barədə danışmaq istəmirəm. Sadəcə olaraq, konseptual nöqteyi-nəzərindən bu mümkündür. Ancaq onu da mən bu gün nəqliyyat nazirinə və Dəmir Yolu İdarəsinin rəisinə dedim, biz əlbəttə ki, buna açığıq, amma vaxt itirmək istəmirik. Çünki cənab Prezident Trampla son söhbət zamanı aydın oldu ki, Ermənistan ərazisində dəmir yolunun tikintisi bu il başlanmalıdır, orada cəmi 42 kilometr yoldur.

Naxçıvan ərazisində isə yeni texniki-iqtisadi əsaslandırma əsasında, - çünki tamamilə yeni texniki-iqtisadi əsaslandırma işlənilib, - yolun uzunluğu 194 kilometr olacaq. Əvvəllər daha qısa idi. Nə üçün daha uzundur? Çünki əvvəllər döngələr daha qısa idi və o xətti biz əsas götürsək, əgər tam necə var idi elə bərpa etsək, bu, 15 milyon ton yükü qaldıra bilməz. Ona görə yol daha uzun olacaq - 194 kilometr. Biz vaxt itirə bilmərik. Bizim vəsaitimiz də var bu il və gələn il. Ona görə yəqin ki, mənim sözlərim müxtəlif ünvanlara da çatacaq. Əgər kimsə bu layihədə iştirak etmək istəyirsə, vaxt itirməsin və tezliklə bizimlə artıq razılaşmaya gəlsin. Çünki bəzi bürokratik əngəllər, məsələlərin uzadılması, yəni bu bizim, Azərbaycanın üsuli-idarəsi deyil. Biz məsələləri müəyyənləşdiririk, qərar qəbul edirik, dərhal bunun icrasına başlayırıq.

Bu yolun əhəmiyyəti dediyim kimi, təkcə Azərbaycan üçün yox, geniş coğrafiya üçün olacaq. Çünki qeyd etdiyim kimi, bu, "Şərq-Qərb" nəqliyyat dəhlizinin bir qolu olacaq. Eyni zamanda "Şimal-Cənub" nəqliyyat dəhlizinin bir qolu olacaq. Çünki bu gün "Şimal-Cənub" nəqliyyat dəhlizi deyəndə, adətən, Rusiya-Azərbaycan-İran, yəni Astaraya keçid, Astara-Rəşt İran ərazisində layihə nəzərdə tutulur. Layihənin icrası bildiyimə görə, ya başlayıb, ya da ki, başlayacaq. Hər halda Azərbaycan ərazisində bu layihə hazırdır. Amma Zəngəzur dəhlizi açılandan sonra artıq Azərbaycandan İrana ikinci dəmir yolu xətti açılacaqdır. Məhz Zəngəzur dəhlizindən Naxçıvana girərək və Culfa dəmiryol məntəqəsindən İrana dəmir yolu var. Yəni bu layihə daha tez reallaşa bilər. "Şimal-Cənub" nəqliyyat dəhlizi Fars körfəzinə istiqamətləndirilir. Oradan o bölgəyə yaxın olan, məsələn, Pakistana uzana bilər. Yəni bu, çox önəmli bir nəqliyyat layihəsi olacaqdır və bunun mərkəzində Naxçıvan dayanır.

*Ardı 7-ci səh.*

◆ **Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri**

# 17-ci səfər

## Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan Televiziyasına müsahibə verib

*Əvvəli 6-cı səh.*



Ona görə bu gün strateji nöqteyi-nəzərindən, bundan əvvəl dediyim amillərlə yanaşı, bu amil də çox önəmli rol oynayır. Əlbəttə ki, buradan keçən tutaq ki, 15 milyon ton, bəlkə daha çox yük daha böyük canlanmaya gətirib çıxaracaq. Daha çox iş yerləri açılacaq, iqtisadi fəallıq artacaq və Naxçıvan deyə bilərəm ki, əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Bu, tam mümkündür.

Hamımız yaxşı bilirik, dəfələrlə bu barədə danışmışıq, ölkəmizin açıq dənizlərə çıxışı yoxdur, okeanlara çıxışı yoxdur. Amma bu gün Avrasiya nəqliyyat dəhlizlərinin icrası məsələləri müzakirə olunanda bizi "bypass" etmək, bizdən yan keçmək mümkün deyil. Bax, Naxçıvanın da eyni gələcəyi olacaqdır və əlbəttə ki, bu bizə həm iqtisadi, həm başqa dividendlər gətirəcək.

***Jurnalist: Cənab Prezident, bu məsələyə artıq qismən toxundunuz. Naxçıvanın enerji təminatı və enerji təhlükəsizliyi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Ötən il İğdır-Naxçıvan qaz boru xəttinin istismara verilməsi, həmçinin Naxçıvanın "yaşıl enerji" potensialının reallaşdırılması istiqamətində addımları xüsusilə qeyd edə bilərik. Ümumilikdə cari vəziyyəti və perspektivləri necə qiymətləndirmək olar? Biz Naxçıvanda da xarici investisiyaları görə bilərikmi? Bu istiqamətdə.***

**Prezident İlham ƏLİYEV:** Bəli, mütləq, mütləq, bu olacaq. Artıq bizə bir çox yerlərdən belə təkliflər daxil olur. Həm Azərbaycanın əsas hissəsində, həm Xəzər dənizində, eyni zamanda bildiyiniz kimi, işğaldan azad edilmiş ərazilərdə artıq konkret layihələrə start verildi. Bəziləri artıq istismara da verilmişdir, bəziləri icra edilir. O cümlədən Naxçıvan Muxtar Respublikasının Günəş potensialını və xüsusilə su potensialını nəzərə alaraq burada daha böyük işlər də görüləcəkdir. Misal üçün, gündəlikdə olan məsələlərdən biri Ordubad rayonunun Tivi kəndindəki 15 meqavatdan bir qədər çox gücdə su-elektrik stansiyasının layihəsidir. Bu stansiyanın davam etdirilməsi üçün də biz vəsait ayıracağıq. Yerli investorlar qeyd etdiyim kimi, 50 meqavatlıq Günəş-elektrik stansiyaları inşa edirlər. Xarici investorlar da maraq göstərirlər.

Mən hesab edirəm ki, təkcə Günəş elektrik enerjisinin istehsalı Naxçıvanda təqribən ən azı 500 meqavat ola bilər, ən azı. Ola bilər 1000 meqavat da olsun. Burada əsas məsələ bunun ixrac imkanlarıdır. Bunun üçün, əlbəttə ki, aidiyyəti ölkələrin qurumları ilə danışıqlar aparılmalıdır və aparılır. Eyni zamanda ötürücü xətlərin imkanlarını genişləndirməliyik. Çünki təbii ki, bu gün həm İrana, həm Türkiyəyə Naxçıvandan da elektrik xətləri var, ancaq onların imkanı bir qədər məhduddur. Yəni 500 meqavat, hətta 1000 meqavat elektrik enerjisini ixrac etmək üçün burada, təbii ki, hələlik iki istiqamət var: biri Türkiyə, biri İran. Amma gələcəkdə bu, Avropa da ola bilər.

Ona görə Zəngəzur dəhlizini konkret layihələrlə təmin etməyimiz daha geniş məna daşıyır. Təbii ki, Zəngəzur dəhlizini - bu ideyanı və bu təşəbbüsü biz irəli süröndə, ilk növbədə nəqliyyat seqmenti nəzərdə tutulurdu. Amma biz bu gün buna daha geniş baxırıq. Misal üçün, Azərbaycanın əsas hissəsindən Naxçıvana Ermənistan ərazisindən elektrik xətlərinin çəkilməsi layihəsi bizdə hazırdır. İşğaldan azad edilmiş Cəbrayıl rayonunda çox böyük yarımstansiya inşa olunmuşdur. O yarımstansiyanın əsas funksiyası ötürücü fəaliyyətdir. Yəni belə yarımstansiyalara çevirici yarımstansiyalar deyirlər. Bu, daxili təminat üçün yox, yəni böyük enerji həcmlərinin ötürülməsi üçün tikilib. O hazırdır. O, məhz Zəngəzur elektrik dəhlizi üçün tikilmişdir.

Ermənistan ərazisində bizim mütəxəssislər tərəfindən aparılan təhlil nəticəsində hətta yerlər də müəyyən edildi - harada elektrik dirəkləri quraşdırılmalıdır. Ümid edirəm ki, Ermənistan tərəfi də bu məsələni uzatmayacaq. Çünki bu, birinci onların özlərinə lazım ola bilər. Çünki onların bu gün əsas enerji mənbəyi atom elektrik stansiyasıdır. Onun da idarəetməsi onların əlində deyil. Bu birincisi. İkincisi, bu stansiya köhnəlib və bütün bölgə üçün təhlükə mənbəyidir. Dəfələrlə Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq platformalarda bu məsələ ilə bağlı öz narahatlıqlarını ifadə ediblər. O stansiyanın ömrünün uzadılması sonsuz proses ola bilməz, gec-tez bağlanmalıdır. Təbii ki, o bağlanarsa, Ermənistan tamamilə enerji böhranına yuvarlanacaq. Ona görə, necə deyərlər, bir əlavə mənbənin olması ancaq xeyir gətirə bilər.

Məsələn, bu gün bizim enerji xətlərimiz Rusiya ilə, İranla, Gürcüstanla, Gürcüstan vasitəsilə Türkiyə ilə birləşdirilib. Ona görə Ermənistan ərazisindən Naxçıvana, ondan sonra Türkiyəyə və Avropaya uzanacaq enerji dəhlizi, eyni zamanda Ermənistanın enerjisisteminin ayaqda qalmasına, - əgər böhran yaranarsa, - imkan yaradacaq. Ona görə biz bunu nə qədər tez icra etsək, o qədər yaxşıdır. Təbii ki, indi siz də yaxşı bilirsiniz, biz bu son beş ildə Kəlbəcər dağlarında, 3500 metr yüksəkliklərdə qarın içində dirəklər quraşdırmışıq. Yəni əgər biz bu layihəni icra etməli olsaq, bu, maksimum 6 ay çəkər.

Amma Ermənistan təbii ki, özü bunu etməlidir. Ona görə hesab edirəm ki, bu məsələyə tezliklə aydınlıq gətirilməlidir. Bu, Zəngəzur dəhlizinin, TRIPP-in ayrılmaz hissəsi olacaq. Çünki bu layihə təkcə dəmir yolu, avtomobil yolu deyil. Hətta buradan fiber-optik kabel, ondan sonra elektrik xətləri, gələcəkdə əgər ehtiyac olarsa, neft-qaz kəmərləri də keçə bilər.

Çünki nə qədər çox alternativlər olsa, hamı üçün o qədər də yaxşıdır. Ona görə Naxçıvanın enerji təhlükəsizliyi ilə əlaqədar suala cavab verərək, həm də əvvəl dediyim sözlərə qayıtmaq istəyirəm ki, burada tam dayanıqlı və sığortalı enerji sistemi yaradılır, faktiki olaraq yaradılıb, amma biz bunu daha da təkmilləşdiririk. Biz, əlbəttə ki, ixrac imkanlarını, o cümlədən Naxçıvan ərazisindən genişləndirməliyik.

Yenə də deyirəm, yerləşdiyimiz bölgədə bizdən başqa bu qədər enerji ilə, istər neft-qaz, istər elektrik enerjisi ilə təmin olunan ikinci ölkə yoxdur. Qonşu ölkələrə ixrac imkanlarımızı genişləndirərək biz eyni zamanda Avropa bazarına da çıxacağıq. Çünki biz indi Avropaya neftimizlə, qazımızla çıxmışıq. Ancaq biz elektrik enerjisi ilə də çıxmaq istəyirik.

Bu gün yeganə marşrut Gürcüstan, Türkiyə, ondan sonra Avropa marşrutudur. Bunu biz genişləndirməliyik. O cümlədən Qara dəniz enerji kabelinin layihəsinin texniki-iqtisadi əsaslandırılması hazırdır. Amma ikinci xətt olsa, bu ancaq bizim gücümüzü artıracaq. Özü də yəqin ki, siz də xatırlayırsınız, hələ 2024-cü ilin noyabrında COP29 zamanı Qazaxıstan, Özbəkistan prezidentləri və mən Xəzərin dibi ilə elektrik kabelinin çəkilişini razılaşdırdıq, saziş imzaladıq. Yəni ona da biz hazır olmalıyıq.

Azərbaycan həm elektrik enerjisini istehsal edən, qəbul edən, ötürən və ixrac edən ölkə kimi özünü göstərəcək. Yəni bizim strateji baxışlarımız və planlarımız bundan ibarətdir. Yenə də deyirəm, bu planlar bizim bütün həndəvərimizdə yerləşən ölkələrin maraqlarına cavab verir. Sadəcə olaraq, burada koordinasiya işləri düzgün səviyyədə, lazımi səviyyədə aparılmalıdır və danışıqlar sürətləndirilməlidir. Deyə bilərəm ki, bu gün həm Türkiyə ilə, həm İranla bu barədə danışıqlar aparılır. Hələ ki, bir şey demək tezdir. O ki qaldı Ermənistana, yenə də demək istəyirəm, Ermənistan ərazisində enerji dəhlizi nə qədər tez yaranarsa, o qədər də TRIPP üçün və bütün bölgə üçün yaxşı olar.

***Jurnalist: Cənab Prezident, ayrı-ayrı istiqamətlər üzrə görülən və görüləcək işlərə toxundunuz. Ümumilikdə bilmək istərdik, Naxçıvanın inkişafı ilə bağlı, - yəqin ki, bu sualın cavabını Naxçıvanda da böyük maraqla gözləyirlər, - yanaşma, strateji baxış və planlar nədən ibarətdir?***

**Prezident İlham ƏLİYEV:** Qeyd etdiyim kimi, vacib olan məsələlər təhlükəsizlik məsələləri idi, bu, həll olundu. Enerji təhlükəsizliyi idi, Naxçıvan Muxtar Respublikası üçün bu, həll olundu. İndi söhbət gedir ki, artıq Naxçıvan enerjinin ixracı ilə məşğul olacaq.

İşsizliklə bağlı görülən tədbirlər. Xüsusilə qeyd etdiyim kimi, Naxçıvan Sənaye Parkının yaradılması buna böyük təkan verəcək. Naxçıvanda müasir sənaye komplekslərinin yaradılması nəzərdə tutulur. Sosial infrastrukturun yaradılması, bərpası nəzərdə tutulur. Mənə verilən məlumata görə, uşaq bağçalarının tikintisinə, təmirinə ehtiyac var, bunu biz edəcəyik.

Naxçıvan şəhərinin nəqliyyat problemləri həll olundu. Bu gün yeni elektrik avtobuslarının təqdimatı oldu və artıq onlar, yəqin ki, sabahdan xəttə buraxılacaq. Köhnə avtobuslar tamamilə sıradan çıxarılıb və bu yaşıl rəngli avtobusları biz Bakı küçələrində də tez-tez görürük. Daha çox görəcəyik, çünki onların faiz nisbəti dizel avtobuslarla müqayisədə daha da artır. Naxçıvan şəhəri üçün bu məsələ həll olundu.

Bilirəm ki, şəhərlərarası, rayonlararası nəqliyyatda problem var. Göstəriş verildi ki, 217 müasir rayonlararası avtobus alınsın, bu il və gələn il marşruta buraxılsın.

Naxçıvan Muxtar Respublikasının yol infrastrukturuna da vaxtilə böyük vəsait qoyulmuşdur. Yolları siz də gördünüz, yaxşı vəziyyətdədir. Amma kənd yolları var, yenə də hələ nasaz vəziyyətdə yollar var və hesablamalar aparılıb, təqribən 420 kilometr uzunluğunda müxtəlif kateqoriyalı yolların həm çəkilişi, həm əsaslı təmiri nəzərdə tutulur. Bu 26 yaşayış məntəqəsindəki əhalinin sayı təxminən 160 min nəfərdir. Bu məsələ öz həllini tapacaq.

Ordubad rayonunda su-elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Bildiyiniz kimi, bu yaxınlarda bütövlükdə Naxçıvanın inkişafına dair dövlət proqramı qəbul edilmişdir, ondan sonra suvarma ilə bağlı tədbirlər planı tərtib olunmuşdur. Mən buraya böyük heyət ezam etdim, bütün məsələlər təhlil olundu və işlərə başlanıldı.

Bu ilin may ayında kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramında Naxçıvana aid xüsusi bir hissə var və bu göstərişlər verildi. Yəni bununla yanaşı, əlavə tədbirlərin görülməsi üçün sabah mənim tərəfimdən növbəti sərəncam imzalanacaq. Bu, çox böyük maliyyətutumlu sərəncam olacaq, orada konkret layihələr göstəriləcək. Əlbəttə, lazımi nəzarət də təmin ediləcək ki, burada işlər daha da sürətlə getsin.

Bütövlükdə, bunu mən artıq həm bəyan etmişdim və həm də biz bunu artıq strukturlaşdırdıq ki, Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir. Məsələn, azad edilmiş bütün ərazilərdə şəhərlərin Baş planları təsdiqləndi. Mən göstəriş verdim ki, Naxçıvan şəhərinin də Baş planı işlənilsin, hazırlansın, - bu gün mənə təqdim edilmişdir, - şəhərin inkişafı, müasir infrastrukturun yaradılması ilə bağlı əlavə tədbirlər görülsün.

Naxçıvanın turizm potensialı çox zəngindir: həm tarixi abidələri, həm gözəl təbiəti, təmiz havası və mənzərəli yerləri var. Ancaq əfsuslar olsun ki, mehmanxanaların az olması və o qədər də səviyyəli olmaması turizmin inkişafını əngəlləyir. Bu gün şəhərin mərkəzində beşulduzlu yeni mehmanxananın təməli qoyuldu və yəqin ki, təqribən 2028-ci ildə hazır olacaq.

Yəni dövlət tərəfindən Naxçıvan Muxtar Respublikasının inkişafına nə lazımdırsa, o da bu günə qədər edilib və ediləcək. Naxçıvanda son 20 il ərzində bütün tikintilər dövlət büdcəsindən maliyyələşdirilib. Hər il Azərbaycan dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə yüz milyonlarla manat vəsait ayrılır. Yəni bu olmasaydı, təbii ki, biz bugünkü inkişaf edən və abad Naxçıvanı da görə bilməzdik.

Ancaq biz hər zaman daha yaxşısını arzulayırıq, daha yaxşısını istəyirik. Nəzərə alsaq ki, Qarabağ, Şərqi Zəngəzur demək olar ki, sıfırdan qurulur və Zəngilan rayonu ilə Ordubad rayonu arasında məsafə cəmi 42 kilometrdir. Bu, faktiki olaraq vahid bir məkandır, tarixən də belə olub. Zəngəzur, Naxçıvan, Qarabağ vahid məkan olub və insanların da miqrasiyası əsrlər boyu olub. Ona görə bu böyük coğrafiyada qohum-əqrəbalar da çoxdur. Ona görə biz bunu vahid, nümunəvi bir inkişaf diyarı kimi nəzərdə tuturuq.

Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası elan edilib, Naxçıvan da "yaşıl enerji" zonasıdır. Bu gün burada istehsal olunan enerjinin əksəriyyəti bərpaolunan enerji hesabınadır. Biz artıq 250 meqavatlıq iki batareya saxlanc qurğusunu yaratmışıq. Mən göstəriş verdim ki, Naxçıvanda da birinci mərhələdə ən azı 100 meqavatlıq batareya saxlanc qurğusu qurulsun. Çünki burada da bərpaolunan enerji - Günəş və su-elektrik stansiyaları işləyir. Ona görə bu enerjiləri yığmaq üçün gərək bu müasir texnologiyalardan istifadə edək.

Bütün bu işlər artıq sistemli şəkildə davam edir. Əgər biz ölkəmizin coğrafi yerləşməsini götürsək görərik ki, hər bir bölgə üçün xüsusi bir inkişaf planı var. Hər bir iqtisadi bölgəmiz uğurla inkişaf edir və bu, ölkəmizin ümumi inkişafını təmin edir.

Ona görə planlar böyükdür və bu planların icrası ilə bağlı məndə heç bir şübhə yoxdur. Çünki güclü iradə var, maliyyə resurslarımız da var, heç kimdən də asılı deyilik. Naxçıvanda Qarabağ və Şərqi Zəngəzurdakı kimi idarəetmə üsuli-idarəsini yaratmaqla faktiki olaraq biz bu üç bölgəni inzibati nöqteyi-nəzərindən də birləşdiririk. Təbii ki, Naxçıvan Muxtar Respublikasının muxtar respublika statusu qalmaq şərti ilə, ancaq idarəetmə qaydaları təkmilləşməlidir.

Biz Qarabağda və Şərqi Zəngəzurda yeni idarəetmə sisteminin üstünlüklərini gördük. Əminəm ki, artıq orada yaşayan 90 mindən çox insan da bunu görür. Eyni idarəetmə - Prezidentin xüsusi nümayəndəliyi Naxçıvanda da tətbiq olundu. Beləliklə, kadr islahatları ilə paralel olaraq, bu struktur islahatları da, əlbəttə, əsas hədəfə istiqamətlənmiş bir yanaşmadır ki, bu bölgə, bu qədim diyar daim inkişaf etsin, insanlar burada rahat, təhlükəsizlik şəraitində yaşasınlar, firavan yaşasınlar.

***Jurnalist: Vaxt ayırdığınız üçün çox minnətdaram.***

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

## Azərbaycan və ABŞ rəsmiləri Strateji Tərəfdaşlıq Xartiyasının icrasını müzakirə ediblər

Avqustun 10-da Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin birinci müavini Endryu Stou ilə görüş keçirib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb, iki ölkə arasında tərəfdaşlığın geniş spektr üzrə daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Müzakirələr zamanı xüsusilə Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyasının həyata keçirilməsi, eləcə də Bakı İqtisadi Dialoqunun nəticələri diqqət mərkəzində olub.

Bununla yanaşı, tərəflər qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıb, sülhün, təhlükəsizliyin və rifahın təşviqinə xidmət edən məsələlər üzrə sıx qarşılıqlı əlaqələrin davam etdirilməsinə və məsləhətləşmələrin aparılmasına hazır olduqlarını təsdiqləyiblər.

## Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan rəsmilərinin üçtərəfli görüşü keçirilib

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov, ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Huker və Ermənistanın xarici işlər nazirinin müavini Vahan Kostanyan arasında üçtərəfli görüş baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tarixi Vaşinqton Sammitinin birinci ildönümünə təsadüf edən görüş Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinə həsr olunub.



Görüş zamanı tərəflər "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) təşəbbüsü ilə bağlı son vəziyyəti müzakirə edib, maneəsiz regional bağlantının, iqtisadi inkişafın və davamlı sülhün təmin olunması istiqamətində növbəti addımları nəzərdən keçiriblər. Tərəflər həmçinin Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiyası üzrə davam edən prosesə dair fikir mübadiləsi aparıb, əldə olunmuş razılaşmalar əsasında bu istiqamətdə praktiki işlərin davam etdirilməsinin vacibliyini vurğulayıblar. Qarşılıqlı etimadın möhkəmləndirilməsinə və sülh prosesinin davamlı şəkildə həyata keçirilməsinə dəstək verən etimad quruculuğu tədbirlərinə xüsusi diqqət yetirilib. Tərəflər Vaşinqton Sammitinin birinci ildönümündə üçtərəfli görüşə evsahibliyi etdiyinə görə ABŞ tərəfinə minnətdarlıqlarını ifadə edib və əldə olunmuş öhdəliklərin konkret nəticələrə çevrilməsinin əhəmiyyətini vurğulayıblar.



# Uzaq Vaşinqtondan yaxın münasibət

## Azərbaycan və ABŞ Cənubi Qafqazda yeni düzən formalaşdırır

**Ölkəmizin böyük nailiyyətlərlə müşayiət edilən xarici siyasətində son dövrün ən mühüm hadisələrindən biri ABŞ ilə münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması və bunun Azərbaycanla Ermənistan arasında sülh prosesinin nəticələri ilə paralel inkişaf etməsidir. 2025-ci il avqustun 8-9-da Prezident İlham Əliyevin ABŞ-yə səfəri bu baxımdan tarixi mərhələnin başlanğıcına çevrildi.**

Vaşinqtonda - Ağ Evdə keçirilən görüşlər və əldə olunan tarixi razılaşmalar həm Azərbaycan-ABŞ əlaqələrinin yeni strateji məzmun qazanmasına, həm də Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin mühüm siyasi nəticələrlə tamamlanmasına şərait yaratdı. Vaşinqton görüşünün ildönümü münasibətilə 4 gün öncə - avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasındakı telefon danışığı isə həmin tarixi hadisənin birillik siyasi nəticələrinin qiymətləndirilməsi baxımından çox böyük əhəmiyyət daşıyır. Vaşinqton Zirvə görüşündən ötən bir il ərzində regionda sülh və sabitliyin qorunması, Azərbaycan-ABŞ strateji tərəfdaşlığının inkişafı ilə bağlı qarşılıqlı əminlik yaradan mühüm nəticələr 2025-ci ildən başlanmış prosesin artıq davamlı xarakter aldığını göstərir. Bu mənada bir il öncəki Vaşinqton görüşünə və 2026-cı ilin avqustunda baş tutan telefon danışığına bir-birini tamamlayan vahid siyasi proses kimi yanaşmaq lazımdır.

Zirvə görüşü ilə dövlət rəhbərlərinin telefon danışığı arasındakı birillik müddət, əslində, Azərbaycanla ABŞ arasında yeni siyasi xəttin formalaşması və möhkəmlənməsi dövrü oldu. Bu müddət ərzində Azərbaycan-ABŞ strateji tərəfdaşlığı yeni hüquqi-siyasi çərçivə qazandı, Azərbaycan-Ermənistan sülh prosesi yeni mərhələyə keçdi, regionda sabitlik qorundu, iki ölkə arasında iqtisadi və tranzit əlaqələr formalaşmağa başladı, TRIPP layihəsinin icrası istiqamətində praktiki işlər irəlilədi, ABŞ-nin Cənubi Qafqazda sülh və bağlantılar gündəliyində rolu daha da gücləndi. Bütün bunlar Vaşinqton görüşündə əldə edilmiş razılaşmaların ümumən regionun gələcək inkişaf modelinə təsir göstərən siyasi və geoiqtisadi proseslərin başlanğıc nöqtəsinə çevrildiyini göstərir.

ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələsi barədə düzgün qənaətlərin formalaşması üçün əvvəlki dövrün siyasi mənzərəsinə nəzər salmaq lazımdır. Məlumdur ki, Donald Trampdan əvvəlki Bayden administrasiyası dövründə ABŞ-nin Azərbaycana münasibəti tendensioz xarakter daşıyırdı. Bu yanaşma isə həmin dövrə qədər ikitərəfli münasibətlərdə əldə edilmiş nəticələrə ciddi zərbə vururdu. Həmin yanlış münasibət regiondakı proseslərə də mənfi təsir göstərərək Cənubi Qafqazda sülh və ədalətin təmin olunması istiqamətində imkanları xeyli dərəcədə məhdudlaşdırırdı. Regionun aparıcı dövləti kimi Azərbaycanın mövqeyinin və potensialının lazımi səviyyədə qiymətləndirilməməsi ABŞ-nin Cənubi Qafqaz siyasətində müəyyən problemlərə rəvac verirdi. Halbuki regionda dayanıqlı sülhün təmin olunması üçün ölkəmizin siyasi və iqtisadi çəkisinin, təhlükəsizlik imkanlarının və regional layihələrdə rolunun nəzərə alınması obyektiv zərurət idi.

Donald Trampın Prezident seçilməsi ilə ABŞ xarici siyasətində yeni yanaşmaların formalaşması isə iki dövlət arasındakı həm əlaqələrə, həm də münasibətlərə öz müsbət təsirini göstərdi. İlham Əliyevin də bəyan etdiyi kimi, dünyada sülhün təmin olunmasını prioritet istiqamətlərdən birinə çevirən yeni administrasiyanın siyasəti Cənubi Qafqaza münasibətdə də ciddi imkanlar yaratdı. Bu baxımdan, ABŞ-Azərbaycan əlaqələrində baş verən transformasiya, eyni zamanda Vaşinqtonun Cənubi Qafqazda sülhün təmin edilməsinə, regional kommunikasiyaların açılmasına və iqtisadi əməkdaşlığın genişləndirilməsinə baxışının dəyişməsi ilə də müşayiət olunur. Məhz buna görə ABŞ-Azərbaycan əlaqələrindəki dəyişikliklərlə Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması bir-birini tamamlayan vahid prosesin tərkib elementləridir.

### Strateji tərəfdaşlıq

Bir il əvvəl Vaşinqtonda Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında keçirilmiş görüş və aparılan müzakirələr iki ölkə arasında münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdi. Bu görüşün ən mühüm nəticələrindən biri "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya"nın hazırlanması barədə razılaşma oldu.

Belə bir sənədin hazırlanması iki ölkə arasındakı münasibətlərin ayrı-ayrı əməkdaşlıq sahələrindən daha geniş strateji çərçivəyə keçirilməsinin göstəricisidir. Azərbaycan-ABŞ münasibətlərində siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji, nəqliyyat, təhlükəsizlik və regional bağlantılar kimi istiqamətlər artıq daha geniş strateji perspektivdə nəzərdən keçirilməkdədir. Vaşinqton səfəri zamanı "Azadlığa dəstək Aktı"na 907-ci düzəlişlə bağlı qərar və TRIPP layihəsi üzrə razılaşma da münasibətlərin yeni mərhələsinin konkret göstəricilərinə çevrildi. Bütün bunlar ABŞ-Azərbaycan əlaqələrinin transformasiyasının əsas nəticələri sırasındadır. Məsələn, 907-ci düzəlişin aradan qaldırılması münasibətlərin siyasi yükünü dəyişir. Çünki Azərbaycan-ABŞ münasibətlərində uzun müddət mübahisə mövzusu olmuş ən əhəmiyyətli məsələlərdən biri məhz 907-ci düzəliş idi. Bu düzəlişlə bağlı yeni yanaşmanın formalaşması Bakı-Vaşinqton əlaqələrində siyasi etimadın güclənməsi baxımından son dərəcə mühümdür. Azərbaycan üçün uzun müddət siyasi narazılıq doğuran məhdudiyyətlərdən birinin aradan qaldırılması ABŞ-nin rəsmi Bakı ilə iş birliyinə yeni prizmadan yanaşdığını nümayiş etdirir. Beləliklə, iki ölkə arasında münasibətlərin transformasiyası yeni əməkdaşlıq mexanizmlərinin yaradılmasına paralel şəkildə keçmişdən qalmış siyasi problemlərin həllinə yanaşmanın dəyişməsi ilə də xarakterizə olunur.

### Sülh və dayanıqlı inkişaf marşrutu

Bir il əvvəl Vaşinqtonda əldə edilmiş razılaşmalar sırasında "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu", başqa sözlə, TRIPP layihəsi xüsusi yer tutur. Azərbaycanla Naxçıvan arasında nəqliyyat bağlantısının yaradılmasını nəzərdə tutan bu layihə ümumilikdə Cənubi Qafqazın yeni regional nəqliyyat sisteminin formalaşdırılması baxımından da strateji əhəmiyyət daşıyır.

TRIPP layihəsinin əhəmiyyəti 2026-cı il avqustun 8-də Prezident İlham Əliyevlə Prezident Donald Tramp arasında keçirilmiş telefon danışığında da xüsusi vurğulanıb. Telefon danışığı zamanı Azərbaycan ərazisində nəqliyyat infrastrukturu üzrə işlərin artıq başa çatmaq mərhələsində olduğu bildirilib və Ermənistan ərazisində TRIPP layihəsi üzrə işlərin tezliklə başlanacağına ümid ifadə olunub. Cəmi bir il əvvəl Vaşinqtonda siyasi razılaşma kimi gündəmə gələn layihənin 2026-cı ildə, xüsusən Azərbycanın əməli səyləri ilə artıq praktiki icra mərhələsinə keçməsi sülhün real iqtisadi və nəqliyyat nəticələrinə çevrilməkdə olduğunu göstərir. Beləliklə, Azərbaycanın əsas müəlliflərindən olduğu sülh yalnız siyasi sənədlərin imzalanması ilə məhdudlaşmır, bu prosesin davamlılığı regionda yeni iqtisadi və nəqliyyat əlaqələrinin yaranması ilə möhkəmlənir.

Bu baxımdan, tarixi Vaşinqton razılaşmalarını Azərbaycanla Ermənistan arasında çox uzun və mürəkkəb tarixi-siyasi proseslərin nəticəsi olan indiki sülh prosesinin son dərəcə əhəmiyyətli mərhələsi hesab etmək olar. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli liderliyi, ordumuzun gücü sayəsində Azərbaycan torpaqlarının işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi bu mərhələyə şərait yaratdı. Bununla regionda əvvəlki statuskvonun bərpası imkanları aradan qalxdı və münasibətlərin yeni mərhələyə keçməsi üçün obyektiv şərait formalaşdı. Azərbaycan sülh müqaviləsində nəzərdə tutulan beş prinsipin müəllifi kimi çıxış edərək sülh gündəliyini formalaşdırdı. Bu prinsiplər dövlətlərin bir-birinin ərazi bütövlüyünə, suverenliyinə hörmət etməsi, qarşılıqlı ərazi iddialarından imtina və münasibətlərin beynəlxalq hüququn əsas prinsipləri əsasında qurulması məntiqinə əsaslanır. Beləliklə, Azərbaycan üçün sülh müharibədən sonrakı yeni reallıqların siyasi və hüquqi şəkildə təsbit edilməsi mərhələsidir. Bu, Azərbaycanın həm müharibə meydanında, həm də sülh prosesindəki qələbəsidir.

Azərbaycanla Ermənistan arasındakı sülh prosesinin mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, ölkəmiz sülh gündəliyinə hərbi-siyasi reallıqlardan çıxış edərək yanaşır. 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatı nəticəsində yaranmış yeni reallıq Ermənistanın əvvəlki siyasətini davam etdirməsi imkanlarını ciddi şəkildə məhdudlaşdırdı. Bundan sonra Ermənistan qarşısında əsas seçim sülh və normallaşma yoluna keçmək idi. Bu baxımdan, 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması uzun prosesin məntiqi nəticəsi, ölkəmizin formalaşdırdığı yeni tarixi reallığın diktəsi kimi qiymətləndirilə bilər. Beləliklə, İlham Əliyevin məqsədyönlü siyasəti, mükəmməl strategiyası sayəsində ölkəmiz əvvəlcə öz ərazi bütövlüyünü və suverenliyini təmin etdi, daha sonra isə həmin reallıq əsasında sülh gündəliyini formalaşdırmağa müvəffəq oldu.

Vaşinqton görüşündən ötən bir il ərzində Cənubi Qafqaz bölgəsində sülhə xələl gətirə biləcək insident baş verməyib. Bu fakt sülh prosesinin dayanıqlılığı baxımından xüsusi əhəmiyyət daşıyır. Çünki uzunmüddətli münaqişədən çıxmış regionlarda siyasi sənədlərin əldə olunması qədər onların yaratdığı yeni təhlükəsizlik mühitinin qorunması da vacibdir.

Daha önəmlisi isə sülh prosesinin iqtisadi münasibətlərə müsbət təsirləridir. Azərbaycanın neft məhsullarının Ermənistana ixracına, tranzit yüklərin ölkəmizin ərazisindən Ermənistana daşınmasına başlanıb, ticarət əlaqələrinin qurulmasına doğru ilkin addımlar atılıb. Bütün bunlar Azərbaycan ABŞ prezidentlərinin telefon söhbətində də təqdir edildi.

Uzun illər bir-birinə qarşı düşmən münasibətdə olmuş iki ölkənin iqtisadi əlaqələr qurmağa başlaması sülhün cəmiyyətlər və dövlətlər arasında qarşılıqlı asılılıq yaratmaq imkanını da artırır. Sülh təhlükəsizlikdən iqtisadi inteqrasiyaya keçid edir. Əvvəllər sülh dedikdə əsasən hərbi əməliyyatların dayandırılması və təhlükəsizlik məsələləri nəzərdə tutulurdusa, hazırkı mərhələdə sülhün iqtisadi, nəqliyyat və ticarət komponentləri də ön plana çıxır. Sülhün dayanıqlılığı üçün siyasi razılaşmalarla yanaşı, qarşılıqlı iqtisadi maraqların yaradılması da mühüm amilə çevrilir. TRIPP layihəsi bu baxımdan da xüsusi əhəmiyyət daşıyır. Belə ki, nəqliyyat bağlantılarının inkişafı region ölkələrinin iqtisadi maraqlarını bir-birinə bağlamaqla sülhün maddi əsaslarını möhkəmləndirəcək.

### İkitərəfli münasibətlərdən regional sülhə

Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı onilliklərdə əgər ABŞ ilə ikitərəfli münasibətlər əsasən enerji, təhlükəsizlik və digər ayrı-ayrı istiqamətlər üzrə əməkdaşlıq çərçivəsində nəzərdən keçirilirdisə, hazırkı mərhələdə münasibətlər daha geniş regional strategiyanın bir hissəsinə çevrilib. Azərbaycan ABŞ üçün Cənubi Qafqazda mühüm siyasi və iqtisadi tərəfdaş olmaqla, regional bağlantıların, enerji təhlükəsizliyinin və sülh prosesinin əsas iştirakçısıdır. ABŞ üçün Azərbaycanla strateji tərəfdaşlığın dərinləşməsi, eyni zamanda regionda sülh və sabitliyin möhkəmlənməsi baxımından mühüm imkanlar yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü siyasət müharibədən sülhə keçidin əsas amilidir. Əldə edilmiş bütün müsbət nəticələrin təməlində dövlətimizin ardıcıl və məqsədyönlü strategiyası durur. Ölkəmiz öz milli maraqlarını qorumaqla yanaşı, regional reallıqları nəzərə alan uzunmüddətli siyasi xətt yürüdür. Azərbaycanın hərbi gücünün artması, ərazi bütövlüyünün bərpası, suverenliyin tam təmin edilməsi və bundan sonra sülh gündəliyinin irəli sürülməsi bir-birindən ayrı mərhələlər olmayıb, vahid strategiyanın tərkib hissələridir. Məhz bu strategiya sayəsində Azərbaycan həm müharibənin nəticələrini dəyişdirən, həm də müharibədən sonrakı sülh gündəliyini müəyyən edən əsas dövlət rolundadır. Ölkəmizin müharibədə qazandığı qələbə sülh prosesinin başlanmasına, sülh prosesi regionun yeni iqtisadi və geosiyasi reallığının formalaşmasına yol açıb. ABŞ-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi isə bu yeni regional düzənin beynəlxalq müstəvidə möhkəmlənməsinə mühüm töhfələr verir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

# Azərbaycan və Ermənistan liderlərinin telefon danışığı sülh gündəliyinin uğurudur

**Azərbaycan və Ermənistan arasında sülh prosesi artıq yeni, praktiki müstəviyə qədəm qoyub. İki ölkə arasında hərbi gərginliyin geridə qalması, sərhədlərin müəyyənləşməsi və nəqliyyat yollarının açılması istiqamətində atılan tarixi addımlar regionda davamlı sabitliyin əsasını qoyur. Bu gün Cənubi Qafqazda tərəflər arasında birbaşa dialoq mexanizminin işləməsi və sülh sazişi üzrə razılıqların əldə olunması yalnız iki dövlət üçün deyil, bütün bölgənin iqtisadi inkişafı üçün yeni imkanlar açır.**

Milli Məclisin deputatı **Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, bu müsbət dinamikanın tərkib hissəsi kimi, Azərbaycan Prezidenti İlham Əliyevə Ermənistanın Baş naziri Nikol Paşinyanın zəng etməsi və Vaşinqton Sülh Sammitinin ildönümü münasibətilə fikir mübadiləsi aparması xüsusi diqqət çəkir: "Liderlər arasında baş tutan telefon danışığı göstərir ki, tərəflər artıq əldə olunmuş sülh razılaşmalarına sadiqdirlər və siyasi iradə nümayiş etdirirlər. Nikol Paşinyanın bu təşəbbüsü iki ölkə arasında etimad mühitinin daha da möhkəmlənməsinə və sülh sazişinin tam yekunlaşması istiqamətində prosesin sürətlənməsinə xidmət edir".



K.Bayramov qeyd edib ki, danışıq zamanı tərəflər sülh prosesinin irəliləməsində Prezident Donald Trampın və ABŞ hökumətinin mühüm rolunu xüsusi vurğulayıblar. Eyni zamanda ötən il ərzində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində böyük irəliləyiş əldə olunduğu qeyd edilib. Söhbət zamanı iki ölkə arasında iqtisadi və ticari əlaqələrin inkişafı sülhün əsas nəticələrindən biri kimi qiymətləndirilib. Bu çərçivədə Azərbaycan neft məhsullarının Ermənistana ixracı xüsusi vurğulanıb. Həmçinin tranzit yüklərin Azərbaycan ərazisindən Ermənistana və digər istiqamətlərə daşınması məsələsi də nəzərdən keçirilib. "Diqqətçəkən ən vacib məqamlardan biri TRIPP marşrutunun icrası ilə bağlı fikir mübadiləsinin aparılması idi. Vaşinqtonda əldə olunan razılaşmalara istinad edilməsi göstərir ki, regionda nəqliyyat və kommunikasiya xətlərinin açılması prosesi beynəlxalq tərəfdaşların da iştirakı və dəstəyi ilə konkret müstəviyə keçir. Bu, strateji marşrutların reallaşması istiqamətində praktiki addımların atıldığını təsdiqləyir", - deyə o əlavə edib.

Deputat diqqətə çatdırıb ki, tərəflərin sülh prosesini irəlilətmək niyyəti hərbi-siyasi gərginlik dövründən sonra regionda uzunmüddətli sabitliyin bərqərar olmasının prioritet məsələ olduğunu göstərir: "Bu, təkcə siyasi bəyanat deyil, həm də təhlükəsizlik mühitinin formalaşması üçün vacib şərtdir. Çünki iqtisadi maraqların kəsişməsi və qarşılıqlı asılılığın yaranması sülhün ən böyük zəmanətidir. Yolların və kommunikasiyaların bərpası region ölkələrinin iqtisadi inteqrasiyasını sürətləndirəcək. Bu telefon danışığı göstərir ki, tərəflər bəyanatlardan praktiki mərhələyə keçməkdə qərarlıdırlar. Vaşinqton razılaşmaları çərçivəsində atılan bu addımlar Cənubi Qafqazın nəqliyyat və iqtisadi qovşağa çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir".

Kamran Bayramov bildirib ki, bu gün regionda yaşanan tarixi dönüş bir daha göstərir ki, Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin yeganə zəmanətçisi məhz tərəflərin öz siyasi iradəsi və birbaşa dialoqudur: "İllər boyu bölgədə gərginliyi süni şəkildə saxlayan bəzi xarici dairələrin müdaxilə imkanları artıq tamamilə ortadan götürülüb. ABŞ-nin digər kənar qüvvələrdən əsas fərqi də məhz bundadır: Vaşinqton tərəflərə öz şərtlərini diktə etmir, əksinə, iki ölkənin birbaşa razılaşdığı sülh gündəliyinə, iqtisadi tərəqqiyə və nəqliyyat layihələrinə real dəstək verir, yardım göstərir. Prezident İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqe və regional liderlik sübut etdi ki, xarici diktələr dövrü geridə qalıb. Cənubi Qafqazın gələcəyini məhz region dövlətlərinin özləri və onlarla bərabərhüquqlu, faydalı əməkdaşlıq edən tərəfdaşlar müəyyən edir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Cənubi Qafqazda sabitlik və əməkdaşlıq dövrü

## Birgə Bəyanat regionun münaqişədən inkişaf və sabitlik mərhələsinə keçdiyini təsdiqləyir

Azərbaycan və Ermənistan arasında sülhün dayanıqlı olması regionun təhlükəsizliyi və firavan gələcəyi üçün tarixi zərurətdir. Onilliklər boyu davam edən münaqişədən sonra atılan cəsarətli siyasi addımlar, qarşılıqlı dialoq və iqtisadi təşəbbüslər Cənubi Qafqazı hərbi-siyasi qarşıdurma zonasından əməkdaşlıq məkanına çevirmək məqsədi daşıyır. Xüsusən, son bir il ərzində ikitərəfli və çoxtərəfli müstəvidə yürüdülən sülh diplomatiyası konkret nəticələr verməkdədir.

Məhz bu mühüm proseslərin mənzərəsini və əldə olunmuş nailiyyətləri nümayiş etdirən növbəti mühüm addım kimi iyulun 10-da Amerika Birləşmiş Ştatları, Ermənistan Respublikası və Azərbaycan Respublikası 2025-ci ilin avqustunda Ağ Evdə təşkil olunmuş Sülh Sammitinin birinci ildönümü ilə bağlı Birgə Bəyanat yayıblar. Birgə Bəyanatda bir il əvvəl paraflanmış sülh sazişinin tarixi əhəmiyyəti vurğulanıb və bu vasitəçiliyə görə Prezident İlham Əliyevlə Baş nazir Nikol Paşinyanın Prezident D.Trampın Nobel Sülh Mükafatına namizədliyini birgə irəli sürdükləri diqqətə çatdırılıb. Sənəddə ötən müddət ərzində sərhəddə sabitliyin qorunduğu, delimitasiya prosesi və etimad mühitinin möhkəmləndirilməsi istiqamətində konkret addımların atıldığı bildirilib.

Eyni zamanda bəyanatda mühüm nəqliyyat və infrastruktur layihəsi olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) reallaşdırılması, Azərbaycanın bu çərçivədə yol tikintilərini tamamlamaq üzrə olduğu, tranzit məhdudiyyətlərini qaldıraraq Ermənistana minlərlə ton yük və neft məhsulları tədarük etdiyi qeyd olunub. Həmçinin ABŞ-nin Orta dəhliz üçün Trans-Xəzər Fonduna 201 milyon dollar ayırdığı, hər iki ölkə ilə strateji xartiyalar imzaladığı, Bakı ilə İrəvanın birgə müraciəti ilə ATƏT-in Minsk qrupunun ləğv edildiyi və tərəflərin Sülh Şurasına qoşulduğu vurğulanıb. Yekunda tərəflər bir-birinin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə dəstəklərini, sülh prosesinə sadiq qaldıqlarını bir daha bəyan ediblər.

Bu bəyanat bölgədə illərlə davam edən münaqişə mərhələsinin rəsmən geridə qaldığının növbəti təsdiqidir. Sənəd regionun tamamilə yeni geoiqtisadi və geosiyasi mərhələyə qədəm qoyduğunun nümayişidir. Tərəflər kağız üzərində sülhü elan etməklə kifayətlənmədilər və Vaşinqton Sammitindən ötən müddət ərzində təhlükəsizlik, iqtisadiyyat və diplomatik münasibətlər sahəsində önəmli nəticələr əldə edildi. Sərhəd boyunca sabitliyin qorunması, delimitasiya prosesinin irəliləməsi və qarşılıqlı etimadın artırılması istiqamətində real addımlar atıldı.

Sənəddə qeyd edilən mühüm məqamlardan biri regionun blokadadan çıxarılması və tranzit-infrastruktur layihələrinin reallığa çevrilməsidir. TRIPP layihəsi üzrə artıq konkret addımlar atılır. Ermənistanda mühəndis-tədqiqat işləri aparılır. Azərbaycan isə öz ərazisində bu marşruta birləşəcək avtomobil və dəmir yolu tikintisini başa çatdırmaq üzrədir. Elektrik xətlərinin çəkilməsi, regional telekommunikasiya və internet infrastrukturlarının birləşdirilməsi Cənubi Qafqazı Orta dəhlizin və qlobal ticarətin mühüm mərkəzinə çevirir. ABŞ-nin Trans-Xəzər Sahibkarlıq Fonduna 201 milyon dollar vəsait ayırması da dəhlizə olan beynəlxalq marağın və dəstəyin ifadəsidir.

Azərbaycanın birtərəfli qaydada bütün tranzit məhdudiyyətlərini aradan qaldıraraq Ermənistana 60 min ton yük və 20 min ton neft məhsulunun daşınmasını təmin etməsi xüsusi diqqət çəkir. Bu addım sülh prosesinin qarşılıqlı iqtisadi mənfəətə və etimadın bərpasına əsaslanan yeni münasibətlər modelinə keçdiyini aydın şəkildə göstərir.

Bəyanatda digər önəmli məqam keçmiş münaqişə mexanizmlərinin tarixin arxivinə atılması, regionun təhlükəsizlik arxitekturasının yenidən qurulmasının diqqətə çatdırılmasıdır. Bakı və İrəvanın birgə müraciəti əsasında ATƏT-in Minsk qrupu və onunla bağlı strukturların rəsmən ləğv olunması tərəflərin birbaşa dialoq yolunu seçməsinin və kənar müdaxilələrə imkan verməyəcəklərinin bəyanı idi.

Mövcud əlaqələrin dərinləşməsi üçün ABŞ həm Azərbaycan, həm də Ermənistanla enerji təhlükəsizliyi, sərhəd infrastrukturu, süni intellekt və mineral ehtiyatlar sahələrində ikitərəfli strateji tərəfdaşlıq xartiyaları və anlaşma memorandumları imzalayıb. ABŞ-nin hər iki Cənubi Qafqaz dövlətini Sülh Şurasına cəlb etməsi regionda uzunmüddətli sabitliyin, texnoloji və iqtisadi inkişafın möhkəm təməlini qoyur.

Əldə olunmuş tarixi nailiyyətlər Cənubi Qafqazda dayanıqlı sülhün və tərəqqinin dönməz mərhələyə qədəm qoyduğunu göstərir. Kağız üzərindəki razılaşmaların real iqtisadi dividendlərə, təhlükəsizlik zəmanətlərinə çevrilməsi regionun gələcəyini təmin edən əsas amildir. Atılan hər bir addım bölgəni keçmişin münaqişə izlərindən təmizləyərək, onu sabitliyin, iqtisadi imkanların və qarşılıqlı əməkdaşlığın hökm sürdüyü təhlükəsiz məkana çevirir. Bəyanat da tərəflərin bu cəsarətli və gələcəyə hesablanmış strateji kursa sadiq qaldıqlarının, sülh və əməkdaşlıq dövrünün təməlini birgə qoyduqlarının əyani sübutudur.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*



# Azərbaycanın etibarlı tərəfdaşlıq və sülh modeli

Bu gün Azərbaycan dünyada sözü ilə əməli bir olan, etibarlı və müstəqil dövlət kimi tanınır. Cənubi Qafqazda sülhü və sabitliyi təmin edən rəsmi Bakı, qlobal səviyyədə hücum və gərginliklərin artdığı bir dövrdə həm böyük iqtisadi layihələrin mərkəzinə çevrilib, həm də çətin günlərdə dost ölkələrin yanındadır.

## Qlobal logistika və enerji memarlığı

Cənubi Qafqazın geosiyasi mənzərəsini kökündən dəyişən ən böyük siyasi zəfər, Azərbaycanın şərtləri əsasında de-fakto sülhün təmin edilməsidir. Ötən ilin 8 avqust tarixində Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan və Azərbaycan arasında sülh sazişinin mətni paraflanaraq Birgə Bəyannamə imzalandı. 30 illik münaqişəyə son qoyan bu tarixi addımdan dərhal sonra Bakı yalnız bəyanatlarla kifayətlənməyib, praktiki addımlara keçdi.

Bu gün Azərbaycan tərəfindən təchiz edilən benzin və dizel yanacağının Ermənistana ötürülməsi, bölgədə düşmənçilik səhifəsinin bağlanaraq real iqtisadi inteqrasiyanın başladığını göstərir. Eyni zamanda Vaşinqton razılaşmalarının tərkib hissəsi olan Zəngəzur dəhlizinin (TRIPP) açılması perspektivi yalnız Naxçıvanla birbaşa quru əlaqəsini bərpa etməyəcək, həm də türk dünyasını və bütövlükdə Avrasiya ticarət marşrutlarını bir-birinə bağlayan yeni həyat arteriyası olacaq.

Alternativ marşrutların riskli hala gəldiyi müasir dövrdə Azərbaycanın mərkəzində dayandığı Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Avrasiyanın ən təhlükəsiz və operativ ticarət xəttinə çevrilib. Enerji təhlükəsizliyində isə Bakının Avropanın xilaskarına çevrildiyini desək yanılmarıq. Azərbaycan qazı artıq Avropa İttifaqının 10 üzv dövlətinə çatdırılır.

Ənənəvi resurslarla yanaşı, külək və günəş enerjisi ixracı üzrə irimiqyaslı layihələr Aİ-nin enerji keçidi strategiyasında Azərbaycanı açar aktora çevirir.

Azərbaycanı xarici investorlar üçün təhlükəsizlik adasına çevirən əsas amil ölkədəki sarsılmaz sabitlik mühitidir. Eyni zamanda Bakı bir-birinə rəqib olan qlobal güc mərkəzləri ilə bərabərhüquqlu və strateji tərəfdaşlıq qurmağı bacaran unikal diplomatiya yürütməkdədir.

Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı imzalanmış Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, cari ilin fevralında ABŞ və Azərbaycan arasında Bakıda imzalanan Strateji Tərəfdaşlıq Xartiyası, bu ilin iyulunda Almaniya ilə imzalanmış "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" kimi strateji sənədlər dünyanın aparıcı gücləri ilə münasibətlərin institusional zirvəsidir.

Son illərdə Azərbaycanın Mərkəzi Asiya istiqamətində yürütdüyü xarici siyasət, regional siyasətin sistemli və təsisatlaşmış əsasını qoyub. Dövlət başçıları səviyyəsində aparılan intensiv diplomatiya bu prosesin aparıcı qüvvəsidir. Təkcə 2023-cü ildən etibarən Prezident İlham Əliyevin Mərkəzi Asiyanın qardaş ölkələrinə 16 dəfə səfər etməsi, bu regionun liderlərinin isə Azərbaycana 26 dəfə gəlməsi təmasların nə dərəcədə yüksək dinamikaya malik olduğunu nümayiş etdirir. Bu göstərici, Cənubi Qafqaz və Mərkəzi Asiyanın artıq vahid geosiyasi və geoiqtisadi arena kimi hərəkət etdiyinin aydın sübutudur.

Prezident Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasında təsisçi üzv kimi ölkəmizin iştirakı isə Azərbaycanın qlobal sülh platformalarında söz sahibi olduğunun təzahürüdür. Sülhü yalnız sözdə deyil, həm də əməli addımları, təşəbbüsləri və tərəfdaşlıq layihələri ilə əyani şəkildə dəstəkləyən Bakı siyasi iradə və uğurlu diplomatiya ilə barışın mümkün olduğunu ortaya qoyur.

## Bəşəri humanizm və həmrəylik

Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri qonşu dövlətlərlə suverenliyə, bərabərhüquqluluğa və dar günlərdə qarşılıqlı dəstəyə söykənən münasibətlərin inkişaf etdirilməsidir. Bu xüsusda qonşu İranla əlaqələr hər zaman xüsusi dinamikası ilə seçilib. Bu günlərdə İran Prezidenti Məsud Pezeşkianın müharibə dövründə Azərbaycanın Tehrana göstərdiyi dəstəyi və logistik imkanları xüsusi vurğulaması Bakının çətin anlarda sınanmış etibarlı qonşu olduğunu bir daha göstərdi.

Bu səmimi bəyanata cavab olaraq Prezident İlham Əliyevin öz "X" səhifəsində bildirdiyi minnətdarlıq fikirləri iki ölkə arasındakı tarixi və mənəvi bağların dərinliyini ifadə edir: "Azərbaycan və İran xalqları dar və çətin günlərdə hər zaman bir-birinin yanında olublar. Bölgəmizdə baş vermiş son hadisələr fonunda Azərbaycanın qardaş İran xalqının yanında olduğu bir daha özünü göstərdi".

Bu diplomatik dialoq bir daha sübut edir ki, Azərbaycan öz ərazisindən üçüncü qüvvələrin regionda gərginlik yaratmasına imkan vermədiyi kimi, qonşularının çətin günlərində də daim real kömək və logistik imkanları ilə dayaq olmağa hazırdır.

Ölkəmizin etibarlı tərəfdaş imici yalnız iqtisadi və siyasi layihələrlə bitmir. Qlobal problemlərin həllində fəal iştirak edən, onların dialoq yolu ilə aradan qaldırılması üçün əməli işlər həyata keçirən Azərbaycanın, eyni zamanda beynəlxalq humanitar böhranlar zamanı ilk köməyə çatan ölkələrdən olması da gerçəklikdir. Pandemiya dövründə 100-ə yaxın ölkəyə göstərilən maliyyə və tibbi yardımlar, BMT və ÜST müstəvisindəki təşəbbüslər, həmçinin Afrika qitəsi ölkələrinə çoxtərəfli və ikitərəfli əsasda müxtəlif zamanlarda humanitar və inkişafa yardım xarakterli dəstək göstərilməsi bunun bariz sübutlarıdır. Müasir böhranlar zamanı da Azərbaycan öz humanitar missiyasına sadiq qalaraq dost ölkələrə yardım əli uzadır. Azərbaycan Ukraynada yaranmış son vəziyyətlə əlaqədar Ukrayna xalqına mütəmadi olaraq humanitar yardım göndərir.

Avqustun 6-da Ukrayna Prezidenti Volodimir Zelenskinin Ukrayna xalqına göstərilən ardıcıl və mütəmadi humanitar dəstəyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirməsi, Bakının bəşəri dəyərlərə verdiyi yüksək qiymətin növbəti təsdiqidir.

Bütün bu faktlar Azərbaycanın sözü ilə əməli üst-üstə düşən, regionda sülhün və inkişafın baş zəmanətçisi olan müstəqil güc mərkəzi kimi qlobal səviyyədə qəbul edildiyini göstərir. Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşən Azərbaycan, yürütdüyü məsuliyyətli siyasətlə təkcə öz milli maraqlarını qorumur, həm də bütün Avrasiya coğrafiyasının daha təhlükəsiz, inteqrasiya olunmuş və firavan gələcəyini inşa edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Vaşinqton Sammitinin tarixi əhəmiyyəti

## Regionda qarşıdurmadan əməkdaşlığa keçidin siyasi zəmini yaranıb

ABŞ, Azərbaycan və Ermənistanın Ağ Evdə keçirilmiş Sülh Sammitinin birinci ildönümü ilə bağlı yaydığı Birgə Bəyanatı ötən bir il ərzində əldə olunmuş nəticələrin sadə xronologiyası kimi deyil, Cənubi Qafqazda formalaşmaqda olan yeni siyasi reallığın təsdiqi kimi qiymətləndirmək lazımdır. Burada söhbət yalnız Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından getmir. Bəyanatda nəqliyyat, enerji, ticarət, kommunikasiya, investisiya və təhlükəsizlik məsələlərinin eyni siyasi çərçivədə təqdim olunması göstərir ki, artıq söhbət münaqişənin nəticələrinin aradan qaldırılmasından sonrakı mərhələnin formalaşdırılmasından gedir.



**Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ** qəzetimizə açıqlamasında deyib ki, 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilmiş sammitə də məhz bu kontekstdən yanaşmaq lazımdır: "Vaşinqtonda əldə olunan siyasi nəticənin arxasında uzun illər ərzində formalaşmış mürəkkəb bir proses dayanır. Azərbaycan 2020-ci il Vətən müharibəsindən sonra yalnız hərbi üstünlük əldə etməklə kifayətlənməyib. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas xüsusiyyəti ondan ibarət oldu ki, hərbi-siyasi nəticələr sonrakı mərhələdə diplomatik, hüquqi və geosiyasi reallığa çevrildi. Dövlətimizin başçısının liderliyini də məhz bu prizmadan qiymətləndirmək lazımdır. Liderliyin ən mühüm göstəricisi əldə edilmiş nəticənin strateji perspektivini görmək və həmin nəticəni ölkənin milli maraqlarına uyğun yeni siyasi arxitekturaya çevirməkdir. 2020-ci ildən sonra Azərbaycanın qarşısında iki yol var idi: ya əldə edilmiş hərbi-siyasi nəticə ilə kifayətlənmək, ya da həmin nəticəni davamlı sülhə, regional əməkdaşlığa və yeni iqtisadi imkanlara transformasiya etmək. Azərbaycan ikinci yolu seçdi. Vaşinqtonda bir il əvvəl qəbul edilmiş sənədin ildönümü ilə bağlı yayılan Bəyanatın məzmunu da məhz bu strategiyanın nəticələrini göstərir".

Deputat qeyd edib ki, Azərbaycanın sülh gündəliyi heç vaxt yalnız Ermənistanla münasibətlərin normallaşdırılması ilə məhdudlaşmayıb. Rəsmi Bakının yanaşmasında sülh daha geniş anlayışdır. Söhbət Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tanınmasından, münaqişənin siyasi və institusional irsinin aradan qaldırılmasından, kommunikasiyaların açılmasından və regionun qarşılıqlı iqtisadi maraqlar əsasında yeni münasibətlər sisteminə keçməsindən gedir. Bəyanatda bunun bir neçə mühüm təsdiqini görürük. Bəyanatda kommunikasiyaların açılması ilə bağlı məsələlər xüsusi diqqət çəkir. TRIPP-ın artıq yalnız siyasi ideya olaraq qalmaması, Ermənistan ərazisində mühəndis-tədqiqat işlərinin aparılması, Azərbaycanın öz ərazisində Ermənistan istiqamətində avtomobil və dəmir yolu infrastrukturunun əsas hissəsini tamamlaması göstərir ki, siyasi razılaşmalar tədricən fiziki infrastruktura çevrilir. "Bu məsələdə Azərbaycanın mövqeyinin prinsipial tərəfi ondan ibarətdir ki, Bakı kommunikasiyaların açılmasını heç vaxt Ermənistanın suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına zidd mexanizm kimi təqdim etməyib. Əksinə, Azərbaycanın mövqeyi ondan ibarət olub ki, regional kommunikasiyalar məhz suverenlik, ərazi bütövlüyü və yurisdiksiya prinsipləri əsasında fəaliyyət göstərməlidir. İndi isə üç ölkənin Birgə Bəyanatında Azərbaycan və Ermənistanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına sarsılmaz dəstəyin bir daha təsdiqlənməsi bu baxımdan mühüm siyasi məna daşıyır. Yeni kommunikasiyaların açılması ilə bağlı Azərbaycanın prinsipial yanaşması sənəddə əksini tapan fundamental prinsiplərlə uzlaşır. Bəyanatın Azərbaycanın Ermənistan istiqamətində atdığı praktiki addımlara xüsusi yer ayırması da düşünürəm ki, təsadüfi deyil. Azərbaycanın bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırması, bir il ərzində öz ərazisi vasitəsilə Ermənistana və Ermənistandan təxminən 60 min ton yük daşınması, İrəvanın 20 min ton neft məhsulu ilə təmin edilməsi göstərir ki, Azərbaycanın sülh siyasəti yalnız siyasi ritorikadan ibarət deyil. Burada çox mühüm bir prinsip var: sülh yalnız siyasi sənədlə əldə edilmir, onun davamlı olması üçün iqtisadi məzmunu olmalıdır. Dövlətlər arasında ticarət, nəqliyyat, enerji və kommunikasiya əlaqələri genişləndikcə qarşılıqlı maraqlar artır. Azərbaycanın regional əməkdaşlıq modelinin məntiqi də bundan ibarətdir", - deyə deputat əlavə edib.

E.Mirzəbəyli bildirib ki, TRIPP məsələsinə də yalnız Azərbaycan-Ermənistan bağlantısı kimi yanaşmaq düzgün deyil. Bu layihənin Orta dəhlizlə əlaqələndirilməsi Cənubi Qafqazın daha geniş Avrasiya nəqliyyat sisteminə inteqrasiyası baxımından əhəmiyyətlidir. Azərbaycan son illərdə öz ərazisində formalaşdırdığı nəqliyyat və enerji infrastrukturu ilə artıq regional bağlantı sisteminin mühüm mərkəzlərindən birinə çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, enerji dəhlizləri və Orta dəhliz istiqamətində həyata keçirilən layihələr bunun əsas elementləridir. Bu baxımdan, Ermənistanın regional kommunikasiyalara qoşulması Azərbaycanın uzun müddətdir irəli sürdüyü "kommunikasiyaların açılması" siyasətinin daha geniş nəticəyə çevrilməsi deməkdir. Yəni söhbət artıq yalnız iki ölkənin münasibətlərindən deyil, bütövlükdə, regionun iqtisadi xəritəsinin dəyişməsindən gedir.

ABŞ-nin prosesdəki rolundan danışan deputat vurğulayıb ki, Prezident Donald Trampın təşəbbüsü və Ağ Evdə yaradılmış siyasi platforma Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına yeni dinamika verib: "Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də sülh gündəliyinin ABŞ-nin siyasi iştirakı ilə yüksək səviyyədə rəsmiləşdirilməsi oldu. Amma burada səbəb və nəticə münasibətlərini qarışdırmaq olmaz. Vaşinqton prosesi təsadüfi siyasi məkanda yaranmayıb. O, Azərbaycanın illər ərzində formalaşdırdığı yeni reallığın üzərində qurulub. Bu reallığın əsasını Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası, Ermənistanla münasibətlərin yeni şərtlər əsasında qurulması və regionda kommunikasiyaların açılması təşkil edir. Ona görə də ABŞ-ni prosesin mühüm beynəlxalq tərəfdaşı və siyasi katalizatoru, Azərbaycanı isə yeni regional reallığın formalaşmasında həlledici siyasi iradə nümayiş etdirən əsas aktor kimi qiymətləndirmək lazımdır. Azərbaycan-Ermənistan münasibətlərində bu gün əldə olunan nəticələri yalnız vasitəçilik fəaliyyəti ilə izah etmək prosesin əsas səbəblərini nəzərdən qaçırmaq olardı. Vasitəçilik yalnız mövcud siyasi reallıq üzərində nəticə verə bilər. Azərbaycanın yaratdığı reallıq olmasaydı, Vaşinqton prosesinin bugünkü məzmunu da mümkün olmazdı".

E.Mirzəbəyli qeyd edib ki, bəyanatın iqtisadi və texnoloji istiqamətləri də ayrıca diqqət çəkir. Trans-Xəzər Sahibkarlıq Fonduna 201 milyon dollar vəsait ayrılması, enerji təhlükəsizliyi, telekommunikasiya, süni intellekt, yarımkeçiricilər və mühüm mineral ehtiyatlar sahəsində əməkdaşlığın genişləndirilməsi göstərir ki, ABŞ Cənubi Qafqaza artıq yalnız münaqişənin həlli müstəvisindən yanaşmır. Cənubi Qafqaz Avropa ilə Asiya arasında nəqliyyat, enerji və ticarət əlaqələrinin mühüm halqalarından birinə çevrilir. Azərbaycanın burada üstünlüyü isə təkcə coğrafi mövqeyi ilə deyil, son illərdə həmin coğrafi üstünlüyü real infrastruktura çevirməsi ilə bağlıdır. Bu, Prezident İlham Əliyevin regional siyasətinin mühüm nəticələrindən biridir.

Deputat bildirib ki, bütün bunlarla yanaşı, mövcud dinamikanı yekun nəticə kimi qiymətləndirmək olmaz. Sülh prosesində ən mürəkkəb mərhələ siyasi razılaşmaların davamlı və geridönməz reallığa çevrilməsidir. Amma bir il ərzində baş verən proseslərə bütöv şəkildə nəzər saldıqda, ciddi dəyişikliklərin baş verdiyini görürük. Münaqişə üçün yaradılmış institusional mexanizmlər aradan qaldırılır, kommunikasiyalar açılır, ticarət genişlənir, enerji və internet bağlantıları qurulur, yeni nəqliyyat layihələri həyata keçirilir və regionun qlobal iqtisadi sistemə inteqrasiyası sürətlənir. "8 avqust 2025-ci il sammitinin tarixi əhəmiyyəti yalnız Azərbaycan-Ermənistan sülh prosesində mühüm mərhələ olması ilə məhdudlaşmır. Bu sammit Cənubi Qafqazda münaqişə məntiqindən əməkdaşlıq məntiqinə keçidin siyasi əsaslarının formalaşdırıldığı mühüm dönüş nöqtəsidir. Bu dönüşün əsasını isə Azərbaycanın əldə etdiyi tarixi qələbə, Prezident İlham Əliyevin siyasi iradəsi və strateji uzaqgörənliyi təşkil edir. İndi əsas məsələ əldə olunmuş nəticələri qorumaq və onların yaratdığı imkanları maksimum dərəcədə reallaşdırmaqdır. Çünki sülhün əsl nəticəsi yalnız silahların susması deyil, bir vaxtlar qarşıdurma xətti olan məkanın tədricən nəqliyyat, ticarət, enerji və əməkdaşlığın xəttinə çevrilməsidir. Vaşinqton Sammitindən bir il sonra müşahidə etdiyimiz prosesin əsas siyasi mahiyyəti də məhz bundan ibarətdir", - deyə o qeyd edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Prezidentinin irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsü geosiyasi baxımdan olduqca səmərəlidir

Türkiyə ilə Azərbaycanın strateji müttəfiqlik əlaqələri və hər iki dövlətin həyata keçirdiyi infrastruktur layihələri nəqliyyat dəhlizlərinin inkişafına, Avrasiya regionunda iqtisadi və siyasi dividendlər qazanmasına imkan yaradıb. "Şərq-Qərb" istiqamətində fəaliyyət göstərən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) Çindən başlayaraq Avropaya qədər uzanır ki, bu dəhlizin də mərkəzində Türkiyə ilə Azərbaycan dayanır.

AZƏRTAC xəbər verir ki, bu gün Avrasiya regionunda baş verən iki müharibə "Şərq-Qərb" nəqliyyat marşrutları arasında Orta dəhliz və onun davamı olan Zəngəzur dəhlizinin fəaliyyətini artırıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin verdiyi məlumata görə, son 5 ildə "Şərq-Qərb" istiqamətində tranzit yükdaşımaların həcmi 16,5 faiz artıb. Bu, Ələt limanının konteyner aşırma gücünün 100 min TEU-dan 150 min TEU-ya, limanın illik yükaşırma gücünün isə 15 milyon tona çatdırılması nəticəsində baş verib. Bu rəqəmlər Orta dəhlizin yaradılması üçün 10 il əvvəl yatırılan sərmayənin hədər olmadığını göstərir.

**Türkiyənin beynəlxalq təhlükəsizlik məsələləri üzrə eksperti, professor Ali Fuat GÖKÇE** bildirib ki, Orta dəhlizin funksionallığının artırılması istiqamətində Türkiyədə olduqca əhəmiyyətli işlər görülüb. Onun fikrincə, Cənubi Qafqaz, Çin, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələrinin Avropa ilə ticarət əlaqələri Orta və Zəngəzur dəhlizləri vasitəsilə həyata keçiriləcək. Hər iki dəhlizin Avropaya çıxışı Türkiyədən keçir.

Bunun üçün isə Türkiyədə iki mühüm layihə həyata keçirilib. Bunlardan biri 2016-cı ildə istismara verilən, İstanbulda Bosfor boğazının altından keçən 14,6 kilometrlik avtomobil tuneli, digəri isə 2013-cü ildə istifadəyə verilən və 13,5 kilometrlik uzunluğa malik olan Mərmərə dənizaltı dəmir yolu tunelidir. Bu layihələr iki qitəni birləşdirərək Avrasiya regionu boyunca yerləşən




bütün dövlətlərin ticarət əlaqələrini artırır. Avropa İttifaqına daxil olan dövlətlər də bu səmərəli marşrutdan istifadə etməkdə maraqlıdırlar ki, bu da iqtisadi artımla yanaşı, siyasi sabitlik də vəd edir. İstər Asiya, istərsə də Avropa dövlətləri yüklərinin keçdiyi ərazilərdə qeyri-sabitliyə və separatçılığa imkan verməzlər.

Mənzil-qərargahı Qazaxıstanda yerləşən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Beynəlxalq Assosiasiyasının baş katibi əvəzi Nurgül Jakupova bildirib ki, Mərkəzi Asiya respublikaları Orta dəhliz üçün həm tranzit, həm də ixracatçı rolunda çıxış edir. Qazaxıstan və Türkmənistan Xəzərin sahilində yerləşdikləri üçün daha böyük tranzit imkanlarına malikdir. Digərləri isə Avropa ilə idxal-ixrac əməliyyatlarını asanlıqla həyata keçirə bilərlər. Onun fikrincə, Azərbaycan Prezidentinin irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsü həm texniki, həm də geosiyasi baxımdan olduqca səmərəlidir. Bu səmərə ondan ibarətdir ki, Azərbaycanın yaratdığı nəqliyyat infrastrukturu sahəsində yüklər təkrar aşırmaya məruz qalmayaraq birbaşa mənzil başına çatdırılır. Digər tərəfdən, Azərbaycanın bölgədə sülh siyasəti dəhlizin aktuallığını artırır. ABŞ-nin Zəngəzur dəhlizini dəstəkləməsi isə xüsusilə əhəmiyyətlidir.

Məsələnin mahiyyəti Mərkəzi Asiya respublikalarının iqtisadi potensialındadır. 2026-cı ilin birinci yarısında Mərkəzi Asiya respublikalarının ÜDM-i 600 milyard dolları ötüb ki, bu da çox yüksək göstəricidir. Bu, 6,5 faiz artım deməkdir. Nadir yer metallarının dünya üzrə ehtiyatının 38 faizi Mərkəzi Asiyada yerləşir. Bunların işlənməsi və dünya bazarına çıxarılması üçün isə nəqliyyat dəhlizinə böyük ehtiyac var. ABŞ və Avropa ölkələri regiona sərmayə yatıraraq qarşılıqlı faydalı əməkdaşlıq etmək niyyətindədir.

Ekspertlərin fikirlərindən belə aydın olur ki, ötən ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistan arasında razılaşmanın imzalanması regionumuza sülh və iqtisadi inkişaf gətirib. Bunun həyata keçirilməsində Prezident İlham Əliyevin reallaşdırdığı siyasət dayanır.

## İQTİSADİYYAT

# SOCAR: sınanmış tərəfdaş, etibarlı investor

**Artıq hamıya yaxşı məlumdur ki, SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) sərhədləri aşaraq qlobal miqyasda fəaliyyət göstərən şaquli inteqrasiya olunmuş beynəlxalq enerji şirkətinə çevrilib. Azərbaycandakı çoxsahəli və çoxşaxəli işi, həyata keçirilən qobal enerji layihələrində iştirakı ilə yanaşı, bu şirkət hazırda ölkəmizdən kənarda da fəaliyyətini genişləndirməkdədir.**




SOCAR-ın Türkiyədəki investisiyaları ilə qardaş ölkədə milyardlarla dollar dəyərində olan layihələr, o cümlədən STAR neft emalı zavodu və Petkim kompleksi idarə olunur.

Şirkətin xaricdəki ticarət şəbəkələri də genişdir. Məsələn, İsveçrə, Avstriya, Rumıniya, Gürcüstan və digər yerlərdə SOCAR brendi ilə pərakəndə yanacaq satışı həyata keçirilir. İsveçrədə mərkəzləşən "SOCAR Trading" qurumu isə dünya üzrə xam neft və neft məhsullarının beynəlxalq ticarətini təmin edir.

SOCAR "Cənub qaz dəhlizi" kimi qlobal layihədə iştirakı ilə Avropanın enerji təhlükəsizliyinə dəstək verir.

Cari ilin iyun ayında Bakıda keçirilən 31-ci Beynəlxalq Neft və Qaz Sərgisində SOCAR səlahiyyətlisi bildirib ki, şirkət bu gün artıq yalnız Azərbaycan fokusundan kənara çıxıb. Beynəlxalq "upstream" (xam neft və təbii qazın axtarışı, kəşfiyyatı və çıxarılması) layihələrində iştirak edir. O, "Tamar" və "Balen" layihələrinin adını çəkib və qeyd edib ki, SOCAR transformasiya mərhələsini yaşayır. Şirkət beynəlxalq tərəfdaşlıq strategiyasını formalaşdırır, kəşfiyyat və hasilat sahəsində layihələr portfelini şaxələndirir, həmçinin xarici təşəbbüslərdə iştirak vasitəsilə texnologiyaların transferini təmin edir və onun gələcək uğurunun əsası da bundadır.

Həmçinin diqqətə çatdırılıb ki, "upstream" bundan sonra yalnız yeni layihələrin işə salınması ilə deyil, həm də getdikcə artan dərəcədə - yetkin aktivlərin yenidən mənimsənilməsi, neft-qaz sistemlərinin intellektual istifadəsi və artıq fəaliyyətdə olan yataqların sürətləndirilmiş əlavə işlənməsi ilə müəyyən ediləcək.

Bir neçə kəlmə də adıçəkilən layihələr haqqında. Bu ilin yanvar ayında SOCAR "Union Energy" şirkəti ilə Aralıq dənizində ən böyük ofşor qaz yataqlarından biri olan "Tamar"da həyata keçirilən layihədə 10 faiz payın alınması üçün müqavilə imzalayıb.

İsrail sahillərində yerləşən "Tamar" yatağı regionun əsas təbii qaz təchizatçısıdır. "Tamar" enerji təhlükəsizliyi və iqtisadi artımda mühüm rol oynayır. Layihənin operatoru ABŞ-nin "Chevron" şirkətidir.

SOCAR-la "PETROCI Holding"in əməkdaşlığının tarixi qısa olsa da, yaranmış əlaqələr məmnunluq doğurur. Hər iki şirkətin Qərbi Afrikadakı nəhəng "Baleine" layihəsində iştirakını uğurlu əməkdaşlığın bünövrəsi saymaq olar.

"Baleine" Qərbi Afrikada son illərdə aşkar edilmiş ən iri neft-qaz yataqlarından biridir. Dənizdə yerləşən nəhəng yataq 2021-ci ildə kəşf edilib və 2023-cü ildə burada hasilata başlanılıb. Bu yataq dəniz səviyyəsindən təqribən 1200 metr dərinlikdə "məskunlaşıb".

"Baleine" Afrikada ilk xalis sıfır emissiyalı dəniz neft-qaz layihəsidir.

SOCAR "Baleine" yatağının işlənməsi layihəsində iştirak payının alınması ilə bağlı sazişi "Eni S.p.A." şirkəti ilə bu ilin yanvarında imzalayıb. Bu saziş SOCAR-ın Afrika qitəsinin zəngin neft-qaz resurslarına çıxışını təmin etməklə yanaşı, şirkətin qlobal genişlənmə strategiyasına tam uyğundur. Sənədə Dünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Eni S.p.A." şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi imza atıblar.

SOCAR layihədə 10 faiz iştirak payına malikdir. Qalan iştirak payları əsas operator olan "Eni", həmçinin "PETROCI" və "Vitol" şirkətləri arasında bölünüb.

Qeyd edək ki, hazırda "Baleine" yatağından işlənmənin 1-ci və 2-ci mərhələləri çərçivəsində gündəlik 62 min bareldən artıq neft və 2,1 milyon kubmetrdən çox qaz çıxarılır. 4 milyard dollar investisiya ilə təsdiqlənən və inşası davam edən 3-cü mərhələnin işə düşməsi ilə hasilatın gündəlik 150 min barel neftə və 5,7 milyon kubmetr qaza çatdırılması gözlənilir. Yataqdakı neftin potensial həcminin təxminən 2,5 milyard barel, təbii qaz ehtiyatlarının isə 3,3 trilyon kubfut (93,4 milyard kubmetr) olduğu bildirilir.

SOCAR-a aid daha bir yenilik odur ki, "Moody's" beynəlxalq reytinq agentliyi keçən ay şirkətin uzunmüddətli kredit reytinqini Baa3 səviyyəsində, proqnozunu isə "stabil" olaraq təsdiq edib. Bununla da SOCAR ötən il əldə etdiyi investisiya oluna bilən kredit reytinqini uğurla qoruyub saxlayıb.

Bu qərar SOCAR-ın maliyyə dayanıqlığının, kredit profilinin və beynəlxalq kapital bazarlarında etibarlı borcalan mövqeyinin növbəti əyani təsdiqidir. Eyni zamanda bu, şirkətin uzunmüddətli maliyyə siyasətinin və intizamının, davamlı inkişaf istiqamətində həyata keçirdiyi tədbirlərin beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyini göstərir.

"Moody's" qiymətləndirməsində SOCAR-ın Azərbaycan iqtisadiyyatı və enerji sektorunda strateji rolu, inteqrasiya olunmuş fəaliyyət modeli, sağlam maliyyə göstəriciləri və güclü kredit metrikləri reytinqi dəstəkləyən əsas faktorlar kimi qeyd edilib.

Beləliklə, investisiya oluna bilən kredit reytinqinin qorunub saxlanılması beynəlxalq kapital bazarlarında investor etimadının möhkəmlənməsinə, maliyyə institutları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsinə və şirkətin maliyyələşmə imkanlarının genişlənməsinə töhfə verən mühüm amillərdəndir. Bu, eyni zamanda SOCAR-ın beynəlxalq kapital bazarlarında etimad göstərilən tərəfdaş kimi mövqeyini daha da gücləndirir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Kapital qoyuluşunun dinamikası yüksəlir

**Azərbaycanda yaradılan münbit investisiya mühiti yerli və xarici sərmayəçilər üçün cəlbedici olaraq qalır. Səbəb həm də ölkəmizdə investisiyanın qanunla etibarlı qorunmasıdır. Kapital qoyuluşunda bu şərt son dərəcə vacibdir.**

Dünyada baş verən məlum proseslər səbəbindən qlobal iqtisadiyyatda kapital qoyuluşu xeyli azalmışdır. Bu mənfi proseslər ölkəmizdən də yan keçməmişdir. Belə olan halda dövlət ölkənin iqtisadi inkişafındakı dinamikanı qoruyub saxlamaq üçün özü birbaşa investor kimi çıxış edir. Bunun sayəsində iqtisadiyyatda əldə olunan uğurları qoruyub saxlamaq mümkün olur.

Cari ilin birinci yarısında ölkəmizdə kapital qoyuluşunda yerli və xarici investorların aktivliyinin artması dövlətin daha geniş təşviqedici tədbirlərinin nəticəsidir. Dövlət Statistika Komitəsin-



dən verilən məlumata görə, cari ilin yanvar-iyun aylarında ölkənin sosial-iqtisadi sahələrinin inkişafı üçün bütün mənbələrdən əsas kapitala 9 milyard 295,2 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,8 faiz çox investisiya yönəldilmişdir. Hesabat dövründə neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 34,3, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 5,5 faiz artmışdır.

Ölkənin iqtisadi inkişafı üçün investisiya qoyularkən onun səmərəliliyi də nəzərə alınır. Belə ki, qoyulan ümumi sərmayənin 54,2 faizindən məhsul istehsalı, 31,8 faizindən xidmət, 14 faizindən isə yaşayış evlərinin tikintisində istifadə olunub.

Qeyd edildiyi kimi, məlum səbəblərdən, o cümlədən daha çox pandemiya illərində bir neçə il kapital qoyuluşunda dövlətin payı yüksək olub. Sonralar isə sərmayə qoyuluşunda qeyri-dövlət sektorunun payı yenidən yüksəlməyə başlayıb. Hesabat dövründə ölkə üzrə yatırılan ümumi sərmayənin 58,2 faizi qeyri-dövlət, 41,8 faizi isə dövlət sektorlarına məxsusdur. Kapital qoyuluşunda daxili mənbələrin payı yüksək olaraq qalır. Hesabat dövründə daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların dəyəri ümumi sərmayənin 74,2 faizini təşkil edib. Xarici sərmayələrə gəldikdə Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin yanvar-iyun aylarında xarici maliyyə mənbələrindən əsas kapitala 2 milyard 395 milyon manat məbləğində investisiya yatırılıb. Bu da ötən ilin eyni dövründəki göstəricilərlə müqayisədə 18,2 faiz çoxdur. Xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların 1 milyard 935 milyon manatından neft-qaz, 459,5 milyon manatından qeyri-neft-qaz sektorlarında istifadə olunub.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Zəhmət bəhrəsiz qalmır

**Bu il Tovuzda 4270,1 hektarda kartof əkilmişdir. Son məlumata görə, 3080 hektarın məhsulu yığılmışdır. Məhsuldarlıq 298 sentnerdir. Hazırda məhsul yığımı davam edir.**

Kartof istehsalında yenə də "Aqrokompleks" MMC fərqlənir. Təsərrüfat 157 hektar sahənin hər hektarından 529 sentner olmaqla 8305,3 ton məhsul götürmüşdür. Kartof istehsalında fiziki şəxslərdən Ədalət Məhərrəmov hər hektardan 700 sentner olmaqla 5125, Mehman İsgəndərov 520 sentner olmaqla 1274,1, Nazilə İmamverdiyeva 600 sentner olmaqla 735 ton məhsul götürmüşlər.

Rayonda taxıl istehsalında da uğurlu göstəricilərə nail olunmuşdur. 12215 hektarda buğda yetişdirilmişdir. Hər hektardan 47,3 sentner olmaqla 40416,4 ton məhsul biçilmişdir. Taxıl biçinində də "Aqrokompleks" MMC irəlidə gedir. 315 hektar sahənin hər hektarından 50, bəzi ərazilərdən isə 60 sentner məhsul yığılmışdır. Fermerlərdən Ədalət Məhərrəmov hər hektardan 52 sentner, Nərgiz Rüstəmova 35 sentner taxıl götürmüşdür.



Arpa istehsalında da uğurlu göstəricilərə nail olunmuşdur. 2375 hektar arpa sahəsinin hər hektarından 39,3 sentner olmaqla 9344 ton məhsul yığılmışdır. Rayonda elə fermer təsərrüfatları var ki, hər hektardan daha çox arpa biçmişlər. Məsələn, Orxan İbrahimov hər hektardan 45, Kərim Bayramov 42 sentner məhsul əldə etmişdir.

Hazırda Tovuzda 45,3 min baş qaramal, 22,7 min başdan çox davar var. Keçən ilin 6 ayına nisbətən ət istehsalı 3,7, süd istehsalı 2,6, yumurta istehsalı 3,5 faiz artmışdır. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq üçün keçən il lizinq yolu ilə rayona 24 baş düyə gətirilmiş, 466 baş heyvan süni mayalandırılmış, onlardan 240 baş bala alınmış və beləliklə, rayondakı ümumi heyvanların tərkibində cins heyvanların xüsusi çəkisi 15 faizə çatmışdır.

Ənənəvi üzümçülüyə gəldikdə, rayondakı 1265,9 hektar üzüm bağının 1099 hektarı bar verir. Onun 439,6 hektarı texniki üzüm sortlarıdır. İstehsal olunan üzümün bir hissəsinin Rusiya bazarlarına çıxarılması istiqamətində tədbirlər görülür. Bundan başqa, şərab ixracı istiqamətində də işlər aparılır. "Naiqin-Ko" Baltiya MMC tərəfindən keçən il xaricə 300 dekalitr konyak, 700 dekalitr şərab satılmışdır.

Bu il rayonda bostan bitkilərinin əkini genişləndirilərək 53 hektara çatdırılmışdır. Fermerlərdən Vüqar Tanrıverdiyev və Telman Məhərrəmov bu il sahələrdə bol məhsul yetişdirmişlər. Vüqar Tanrıverdiyev hər hektardan 25,3, Telman Məhərrəmov 15,3 ton məhsul götürmüşlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Bakı Qara dəniz-Xəzər regionunda nəqliyyat dəhlizlərinin gələcəyinə dair beynəlxalq foruma evsahibliyi edəcək

**Sentyabrın 7-dən 9-dək Bakıda "Black and Caspian Freight Forum 2026: Corridors, Infrastructure, Investments" adlı 5-ci Beynəlxalq Konfrans və Sərgi keçiriləcək. Tədbir "Four Seasons" hotelində baş tutacaq.**

Tədbirdə dövlət qurumlarının, beynəlxalq maliyyə təşkilatlarının, liman və dəmir yolu şirkətlərinin, nəqliyyat və logistika sektorunun, investisiya dairələrinin, biznes və ekspert təşkilatlarının nümayəndələrinin iştirakı gözlənilir. Tədbirin təşkilatçıları "RDL Group" və CASPIA analitik mərkəzdir.

Forumun əsas müzakirə mövzularından biri Orta dəhlizin inkişafı və onun Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa arasında nəqliyyat əlaqələrinin genişləndirilməsində rolu olacaq. İştirakçılar dəhlizin inkişaf perspektivləri ilə yanaşı, onun praktiki səmərəliliyinə təsir edən əsas məsələləri - infrastrukturun ötürücülük qabiliyyətini, liman və dəmir yolu şəbəkələrinin vəziyyətini, müxtəlif nəqliyyat növləri arasında koordinasiyanı, investisiya ehtiyaclarını və logistika proseslərinin rəqəmsallaşdırılmasını müzakirə edəcəklər.

Xəzər dənizi üzərindən yükdaşımaların dinamikası, liman və dəmir yolu infrastrukturunun inkişafı, nəqliyyat operatorları arasında əməkdaşlığın gücləndirilməsi, eləcə də Mərkəzi Asiya və Cənubi Qafqazın nəqliyyat şəbəkələrinin Qara dəniz regionu və Avropa ilə daha sıx əlaqələndirilməsi imkanları da müzakirələrin




əsas istiqamətləri sırasında yer alacaq.

Forumda TRIPP - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (Trump Route for International Peace and Prosperity) daxil olmaqla, regionda irəli sürülən yeni infrastruktur təşəbbüsləri və onların regional bağlantılara mümkün təsiri də ayrıca nəzərdən keçiriləcək. Bununla yanaşı, nəqliyyat infrastrukturuna investisiyaların cəlb edilməsi, multimodal daşımaların inkişafı, Xəzər və Qara dəniz üzərindən yükdaşımaların genişləndirilməsi, logistikanın rəqəmsallaşdırılması və beynəlxalq nəqliyyat dəhlizlərinin perspektivləri ətrafında fikir mübadiləsi aparılacaq.

Kütləvi informasiya vasitələrinin nümayəndələri "Black and Caspian FreightForum 2026: Corridors, Infrastructure, Investments" tədbirini işıqlandırmağa dəvət olunurlar.

Media akkreditasiyası üçün tədbiri işıqlandıracaq jurnalistin və ya digər media nümayəndəsinin adı, soyadı və təmsil etdiyi media qurumunun adının təqdim edilməsi xahiş olunur.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Altı ayda Azərbaycan 173 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatları aparıb

**Bu ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 173 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçiriblər.**



Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, hesabat dövründə 119 ölkəyə məhsul ixrac edilib, 155 ölkədən isə məhsul idxal olunub.

Yanvar-iyun aylarında xarici ticarət dövriyyəsi 26 milyard 54,2 milyon dolları təşkil edib. Bu dövrdə 9 milyard 372 milyon dollar məbləğində müsbət ticarət saldosu yaranıb. Ötən ilin yanvar-iyun ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi nominal ifadədə 9,1 faiz artıb, real ifadədə isə 13,1 faiz azalıb.

# "Şahdəniz Kompressiya" bir addım da irəlilədi

## Layihə üçün avtomatlaşdırma üzrə iri müqavilə imzalandı

**"Şahdəniz" konsorsiumu "Şahdəniz Kompressiya" (ŞDK) layihəsi çərçivəsində avtomatlaşdırılmış əməliyyatlar üçün lazım olan sistemlərin təminatı üzrə iri müqavilə imzalandığını elan edib. Müqavilə "Emerson" şirkətinə verilib.**

Bir neçə gün əvvəl isə BP özünün yarımillik hesabatında bu layihə üzrə görülən işlər barədə ətraflı məlumat vermişdi. Əməliyyatçı şirkət bildirmişdi ki, cari ilin birinci yarısında ŞDK layihəsi təhlükəsiz şəkildə və qrafiki qabaqlayaraq irəliləyib. Eyniadlı platformanın üst modullarının və dayaq blokunun tikintisi işləri müvafiq olaraq Bayıl istehsalat-quraşdırma sahəsində və Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda plana uyğun davam edib.

2,9 milyard dollar dəyərində olan ŞDK layihəsində məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz, eləcə də 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Layihə çərçivəsində yeni bir kompressiya obyektinin - elektriklə işləyən, heyətsiz kompressiya platformasının (və ya Əsasən Heyətsiz Qurğu) inşası nəzərdə tutulur. Layihə həmçinin "Şahdəniz" müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, eləcə də "Şahdəniz Alfa" (ŞDA) və "Şahdəniz Bravo" (ŞDB) platformalarında və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

Yeni müqavilə ŞDK platformasının məsafədən idarə olunması üçün



inteqrasiya olunmuş idarəetmə və təhlükəsizlik sistemlərinin, o cümlədən texnoloji proseslərə nəzarət, təhlükəsizlik məqsədilə dayandırma, yanğın və qazın aşkarlanması və enerji idarəetmə sistemlərinin təminatını əhatə edir.

Birlikdə bu sistemlər platformadakı vacib əməliyyatların real vaxt rejimində izlənməsinə və məsafədən idarə olunmasına imkan verəcək. Bu, əməliyyat xərclərinin azaldılması və uzunmüddətli iş icrasının təmin olunması ilə bərabər təhlükəsizliyin, etibarlılığın və əməliyyat səmərəliliyinin artırılmasına kömək edəcək.

Bir neçə kəlmə də müqavilə verilən şirkət barədə. "Emerson" yəni "Emerson Electric" ABŞ mənşəli iri qlobal texnologiya və mühəndislik şirkətidir. Baş ofisi ABŞ-nin Missuri ştatının Sent-Luis şəhərində yerləşir. Şirkət 1890-cı ildə yaradılıb və sənaye avtomatlaşdırılması, texnoloji avadanlıqlar sahəsində fəaliyyət göstərir.

**BP-nin layihələr üzrə baş meneceri İlqar MƏMMƏDOV** deyib: "Bu müqavilənin imzalanması ŞDK layihəsinin həyata keçirilməsini dəstəkləyən mühüm bir addımdır. Avtomatlaşdırma və idarəetmə sistemləri heyətsiz qurğu kimi nəzərdə tutulan ŞDK platformasının vacib komponentlərindən biri olacaq və platformanın bütün istismar müddəti ərzində onun təhlükəsiz və səmərəli fəaliyyətini dəstəkləyəcək. Bu mühüm müqavilənin verilməsi layihə üzrə işlərin sürətlə irəlilədiyi bir vaxta düşür. Belə ki, bu işlərin ümumilikdə təxminən 30 faizi artıq tamamlanıb. Hazırda təqribən 2700 nəfər layihəyə cəlb olunub. Layihə çərçivəsində müxtəlif istiqamətlər üzrə mühəndislik və istehsal işləri plana uyğun irəliləyir və həmin işlərdə Azərbaycanın yerli resurslarından, təcrübə və sənaye imkanlarından geniş şəkildə istifadə olunur".

Hazırda layihə üzrə inşaat işləri davam edir. Tikintinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin il "Şahdəniz Alfa"dan, 2030-cu ildə isə "Şahdəniz Bravo"dan çıxarılan qaz həcmlərini kompressiya etmək üçün hazır olacağı planlaşdırılır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*






# Gənclik






● 12 Avqust Beynəlxalq Gənclər Günüdür



# Azərbaycan gəncləri dövlət qayğısı ilə əhatə olunub

**BMT tərəfindən 1999-cu ildə hər il avqustun 12-nin Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Həmin vaxtdan etibarən hər ilin bu günü gənclərə lazımi diqqət göstərmək, elmin, təhsilin, iqtisadiyyatın, idman və mədəniyyətin müxtəlif sahələrində qazandıqları nailiyyətləri təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına dəstək olmaq başlıca amil hesab edilir.**

Hər bir xalq özünün xoşbəxt gələcəyini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi ölkələr üçün ən başlıca məsələdir. Nəsillər dəyişir, dövlətlər inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər yaşayır və ölkənin hərtərəfli, uğurlu inkişafına hər bir insan, xüsusən də gənc nəsil öz töhfəsini verir.

Azərbaycan bu sahədə də bir çox dövləti, o cümlədən beynəlxalq ictimaiyyəti qabaqlayıb. Belə ki, 1997-ci ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Gənclər Günü təsis edildikdən sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 Avqust - Beynəlxalq Gənclər Günü elan edilib.

Ümummilli Lider Heydər Əliyev gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq daha bir addım atıb - bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, Dövlət proqramları bu qəbildəndir. Bu mühüm hüquqi sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Dövlətimizin başçısının 19 il bundan əvvəl, 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu elm və təhsil ocaqlarında oxuyur.

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda 50-dən çox olimpiya idman kompleksinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi, idmançılarımızın olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması, əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli davamlılığının daha bir əyani sübutudur.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafını nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaqdır.

Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu şanlı Zəfər nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuzillik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Sevindirici haldır ki, gənclərimiz Vətən uğrunda döyüşməklə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

Hazırda ölkəmizdə gənclər siyasəti uğurla davam etdirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Ölkə gənclərinin hərtərəfli inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatının yaradılmasıdır.

Dövlətimizin başçısının "Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 1 oktyabr tarixli sərəncamına əsasən, ölkəmizin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması işi də uğurla davam etdirilir. Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması daim diqqət mərkəzindədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Görünən odur ki, ali diqqət və qayğını daim öz üzərində hiss edən Azərbaycan gəncliyi göstərilən etimadı layiqincə doğrultmağa çalışır. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Əminliklə demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparacaq. Bu yolda gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlətimizin başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Gələcəyə dəstək

# Qüdrətli dövlətin vətəndaşı olmaq qürurvericidir

**Biz tariximizin bütün mərhələlərində qüruru, mübarizəsi və başıuca yaşamaq iradəsi ilə seçilən böyük bir xalqın övladlarıyıq. Yurdumuz darda olanda bir an belə tərəddüd etmədən sinəsini sipər etməyi şərəf bilən bir millətik. Lakin keçmişə nəzər salanda görürük ki, bu müqəddəs torpaq zaman-zaman ağır sınaqlara, parçalanmalara və işğallara məruz qalıb, həmvətənlərimiz amansız soyqırımları ilə üzləşiblər.**

Çox da uzağa getmədən, son 200 illik tariximizə diqqət yetirsək, təkzibolunmaz faktlar hər birimizin ürək yarasına çevrilən reallıqları sübut edir. Xanlıqlar dövrünün pərakəndəliyi Azərbaycanı parçalamış və nəticədə torpaqlarımız Gülüstan və Türkmənçay müqavilələri ilə ikiyə bölünmüşdür. Araz çayı, sadəcə, torpaqlarımızı deyil, sanki canımızı ortadan ayırmışdır. Amma bu coğrafi ayrılığa rəğmən, qəlbimizdəki milli birliyi, yurd sevgisini və soydaşlarımızla eyni olan amalı qəlbimizdən çıxara bilməmişlər.

Bu parçalanmanın ardınca gələn dövrlərdə dövlətimizə qarşı gah terrorizm, gah radikalizm, gah da cəhalət toxumları ilə daxildən və xaricdən ağır zərbələr vurulmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti böyük ideallarla müstəqil dövlət yaratsa da, o dövrün məlum çətinlikləri səbəbindən cəmi 23 ay yaşaya bilmişdir. Amansızcasına baş verən işğallar dövründə milli dəyərlərimiz sıxışdırılmış, sürgünlər baş vermiş, Zəngəzur, İrəvan, Göyçə kimi tarixi torpaqlarımız böyük itkilərə və işğala məruz qalmışdır.

Nə yaxşı ki, Uca Tanrı xalqımızın mənəvi varlığını bərpa etmək üçün Heydər Əliyev kimi dahi bir şəxsiyyəti bizə bəxş etdi. Bu, Tanrının xalqımıza ən böyük hədiyyəsi idi. Ulu Öndərin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması gələcək ordumuzun təməlini qoydu, böyük mütəfəkkir Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Vətənə gətirilməsi isə Azərbaycan ictimaiyyətinə və mənəviyyatına verilən ən böyük dəyər oldu. 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında dilimizin dövlət dili elan edilməsi milli kimliyimizə verilmiş ən böyük töhfə idi. Heydər Əliyev dühası neçə-neçə günahsız şəxsi təqiblərdən və həbsdən qurtardı, 200 ildən çox davam edən işğal və parçalanmaların qarşısını aldı. Ulu Öndərin rəhbərliyi ilə müstəqil Azərbaycan dünyaya sürətlə inteqrasiya olundu və imzalanan tarixi neft kontraktları bu gün də enerji və iqtisadi təhlükəsizliyimizin ən böyük qarantıdır.

Bu müdrik dövlətçilik kursunu yeni əsrdə davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev isə xalqımıza unudulmaz Zəfər bəxş etdi. Vaxtilə bütün yeraltı və yerüstü sərvətləri xaricə daşınan, talan edilən Qarabağ və Şərqi Zəngəzur bu gün yenidən qurulur. Və çox qürurvericidir ki, həmin möhtəşəm işlərdə II Qarabağ savaşında olduğu kimi, gənclərimiz öndə gedirlər.

Dörd bir tərəfimizdə qlobal və regional geosiyasi, geoiqtisadi gərginliklərin, müharibələrin yaşandığı bir dövrdə Azərbaycanda sarsılmaz sabitliyin və daxili təhlükəsizliyin hökm sürməsi dövlətimizin başçısının yorulmaz fəaliyyətinin nəticəsidir və buna görə hər birimiz liderimizə minnətdarıq. Bütün reallıqları, qazanılan tarixi qələbələri və milli intibahı görməzdən gəlmək, xaricdən durub dövlətçiliyə dil uzatmaq, sadəcə, nankorluq və nadanlıq deyil, Vətənə və dövlətə qarşı ən ağır xəyanətdir. Biz gənclər əminik ki, gün gələcək siyasi mövqeyindən asılı olmayaraq bütün tarixçilər, politoloqlar, analitiklər və ümumilikdə sıravi vətəndaşlar regionda və dünyada baş verənləri hərtərəfli təhlil və müqayisə edərək etiraf edəcəklər ki, dahi Heydər Əliyev uçuruma yuvarlanmaq təhükəsi qarşısında qalan Azərbaycanı necə böyük zəhmətlə, müdrik siyasətlə xilas yoluna çıxarmış, müzəffər sərkərdə İlham Əliyev isə müstəqil və təhlükələrdən xilas olmuş dövləti xəyal edilməyən uca zirvələrə, ərazi bütövlüyünü tam bərpa etmiş qüdrətli bir ölkə səviyyəsinə qaldırmışdır. Prezidentimiz dünyada çox az liderə nəsib olan uzaqgörən və təmkinli fəaliyyəti sayəsində Azərbaycanı qlobal güclərin maraq toqquşması meydanından çıxarıb beynəlxalq miqyasda sözükeçən, etibarlı və strateji tərəfdaşa çevirmişdir. Belə bir liderlə eyni dövrdə yaşamaq və onun ali rəhbərliyi ilə inkişaf edən güclü dövlətin vətəndaşı olmaq qürurvericidir.

*Tural İSMAYILOV,*
*YAP Yevlax Rayon Təşkilatının sədr müavini*

# Azərbaycanda ilk dəfə AVAZ Gənclərin Xor Düşərgəsi təşkil edilib



Gənclər və İdman Nazirliyinin dəstəyi və Bakı İctimai Xorunun təşkilatçılığı ilə avqustun 5-9-da Şəki Olimpiya İdman Kompleksində Azərbaycanda ilk dəfə AVAZ Gənclərin Xor Düşərgəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, düşərgənin ilk günündə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Şəkidə ucaldılmış abidəsini ziyarət ediblər.

Ardınca keçirilən açılış mərasimində düşərgənin məqsəd və proqramı barədə məlumat verilib, istedadlı gənclərin ifasında Azərbaycan və dünya musiqisindən nümunələr səsləndirilib.

Düşərgə müddətində gənclərin musiqi və şəxsi inkişafına yönəlmiş müxtəlif təlim və fəaliyyətlər təşkil olunub. İştirakçılar yoqa, "Xoreoqrafik səhnə hərəkəti, səhnə danışığı", "Layihələrin idarə edilməsi", "Komanda quruculuğu", "Yaradıcılıqda rəqəmsal alətlərin tətbiqi" mövzularında təlimlərə cəlb edilib, gənclər arasında intellektual oyun keçirilib.

Düşərgə çərçivəsində "Musiqiçilərin biznes mühitinə inteqrasiyası, musiqi industriyasının inkişafı" mövzusunda ictimai müzakirə keçirilib. Görüş zamanı gənclərin sualları cavablandırılıb, musiqi sahəsində mövcud çağırışlar və onların həlli istiqamətləri müzakirə olunub.

Bəstəkar və pianoçu Tural Məmmədli, populyar gitara ifaçısı Rəhman Məmmədli ilə keçirilən konsert-görüşlərdə müxtəlif musiqi nümunələri səsləndirilib, Azərbaycan musiqi mədəniyyətinin beynəlxalq səviyyədə təbliği və musiqiçilərin yaradıcılıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Düşərgə çərçivəsində Bakı Musiqi Akademiyasının baş müəllimi Dmitriy Babayevin interaktiv xor sessiyaları, Əməkdar artist Anar Şuşalı və Şölə Səfərəliyevanın ustad dərsləri iştirakçıların vokal və ifaçılıq bacarıqlarının inkişafına, xor sənətinə marağının artırılmasına və səhnə təcrübələrinin zənginləşməsinə töhfə verib.

AVAZ iştirakçıları avqustun 8-də Qax rayonunun İçəri Bazar qala kompleksində, avqustun 9-da isə Şəki Xan sarayında konsert proqramı ilə çıxış ediblər. Konsertlərdə gənclərin solo ifaları ilə yanaşı, xor kollektivi tərəfindən "Qarabağ", "Tələbə", "Bayatılar", "Love" və "Sarı gəlin" əsərləri təqdim olunub.

AVAZ Gənclərin Xor Düşərgəsinin əsas məqsədi gəncləri xor sənəti ətrafında bir araya gətirmək, onların musiqi və yaradıcılıq potensialının inkişafına dəstək olmaq, eyni zamanda Azərbaycan xor mədəniyyətinin inkişafına yeni nəfəs gətirməkdir. Bakı İctimai Xoru isə "musiqi hər kəs üçündür" prinsipi əsasında xor sənətini daha geniş auditoriyaya çatdırmağı və Azərbaycanda inklüziv, müasir və davamlı xor mədəniyyətinin formalaşmasına töhfə verməyi qarşısına məqsəd qoyub.

# "Uğurun sirri nədir?" - Oğuzda gənclərlə interaktiv və motivasiyaedici müzakirə olub

**Oğuz rayon M. F. Axundzadə adına Xaçmaz kənd 1 nömrəli tam orta məktəbində Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Oğuz rayonu üzrə gənclər və idman sektorunun təşkilatçılığı ilə "Uğurun sirri nədir?" mövzusunda gənclərlə interaktiv və motivasiyaedici müzakirə görüşü təşkil edilib.**




Oğuz rayonu üzrə gənclər və idman sektorundan AZƏRTAC-a verilən məlumata görə, tədbir iştirakçıların bir-birini daha yaxından tanımasına və mövzuya maraqla qoşulmasına xidmət edən "Mənim üçün uğur..." adlı buzqıran oyunu ilə başlayıb. Gənclər uğur anlayışını bir söz və ya qısa fikir ilə ifadə edərək baxışlarını bölüşüblər. Daha sonra təşkil olunan müzakirədə "Uğur nədir?", "Uğurlu insanın ən vacib xüsusiyyəti hansıdır?", "Uğur qazanmaq üçün istedad vacibdir, yoxsa zəhmət?", "Uğursuzluq uğura aparan yol ola bilərmi?" və "Sizə ilham verən şəxs kimdir və niyə?" kimi suallar ətrafında fikir mübadiləsi aparılıb. İştirakçılar müxtəlif baxış bucaqlarından çıxış edərək, maraqlı və əsaslandırılmış fikirlər səsləndiriblər. Komanda işi mərhələsində gənclər kiçik qruplara bölünərək "Uğurun resepti" adlı yaradıcı tapşırığı yerinə yetiriblər. Hər qrup uğurun əsas komponentlərini - məqsəd, zəhmət, intizam, səbir, məsuliyyət və özünəinam kimi dəyərləri əks etdirən təqdimatlar hazırlayıb. Tədbirin davamında uğurun əsas prinsiplərinə həsr olunmuş motivasiyaedici çıxış səsləndirilib. Çıxış zamanı məqsəd müəyyənləşdirməyin, vaxtın səmərəli idarə edilməsinin, davamlı öyrənməyin, uğursuzluqlardan nəticə çıxarmağın və özünə inanmağın şəxsi inkişaf və uğur qazanmaq üçün mühüm amillər olduğu vurğulanıb.

Yekun hissədə keçirilən "Gələcəyimə məktub" fəaliyyəti zamanı iştirakçılar bir il sonra nail olmaq istədikləri hədəfləri və bu məqsədlərə çatmaq üçün atacaqları addımları yazaraq gələcək planlarını müəyyənləşdiriblər.

Tədbirin sonunda fəallığı ilə seçilən iştirakçılar mükafatlandırılıblar və onlara hədiyyələr təqdim olunub.

# Turizmdə yeni tendensiyalar - "rəqəmsal köçərilər" və fərqli səyahət vərdişləri



**Turizm uzun illər ərzində insanların istirahət etməsi, yeni mədəniyyətlərlə tanış olması və fərqli coğrafiyaları kəşf etməsi üçün ən vacib fəaliyyət sahələrindən biri hesab edilib. Lakin son illər bu sahədə baş verən dəyişikliklər göstərir ki, artıq turizm əvvəlki anlayışdan xeyli uzaqlaşıb. Bu gün insanlar səyahətə daha fərqli yanaşırlar.**

Texnologiyanın inkişafı, rəqəmsallaşma, ekoloji problemlərin artması, insanların həyat tərzinin dəyişməsi və qlobal hadisələr turizm sektorunda tamamilə yeni tendensiyaların formalaşmasına səbəb olub. Müasir turist artıq yalnız rahat hotel və gözəl mənzərə axtarmır. O, eyni zamanda səyahət etdiyi yerə müsbət təsir göstərmək, yerli mədəniyyəti yaxından tanımaq, ətraf mühitə minimum zərər vurmaq və hətta işləyərək müxtəlif ölkələrdə yaşamaq kimi məqsədlər güdür. Bu dəyişikliklər nəticəsində davamlı turizm, "rəqəmsal köçərilik" və fərqli səyahət vərdişləri beynəlxalq turizm gündəminin əsas istiqamətlərinə çevrilib.

Müasir dövrdə insanlar artıq səyahəti, sadəcə, istirahət kimi deyil, şəxsi inkişafın, yeni biliklərin əldə olunmasının və həyat keyfiyyətinin yüksəldilməsinin bir hissəsi kimi qiymətləndirirlər. Dünyanın müxtəlif ölkələrini ziyarət etmək insanlara fərqli mədəniyyətləri öyrənmək, müxtəlif həyat tərzlərini müşahidə etmək, yeni dillərlə tanış olmaq və fərqli düşüncə tərzlərini anlamaq imkanı yaradır. Bununla yanaşı, turizm ölkələrin iqtisadi inkişafında da mühüm rol oynayır. Hotellər, restoranlar, nəqliyyat şirkətləri, muzeylər, əyləncə mərkəzləri və digər xidmət sahələri milyonlarla insan üçün iş yeridir. Bir çox ölkədə turizm ümumi daxili məhsulun əhəmiyyətli hissəsini təşkil edir və dövlət büdcəsinə böyük həcmdə gəlir gətirir. Lakin turizmin sürətlə inkişaf etməsi ilə yanaşı, onun yaratdığı problemlər də getdikcə daha çox nəzərə çarpmağa başlayıb.

Uzun müddət ərzində kütləvi turizm əsas model hesab olunurdu. Məşhur şəhərlər və kurortlar hər il milyonlarla turist qəbul edir, hotellər maksimum doluluq səviyyəsinə çatır, hava limanları və nəqliyyat infrastrukturu böyük yüklə işləyirdi. İlk baxışdan bu vəziyyət iqtisadi baxımdan müsbət görünürdü. Ancaq zaman keçdikcə məlum oldu ki, nəzarətsiz turist axını tarixi abidələrin aşınmasına, təbiətin çirklənməsinə, su və enerji ehtiyatlarının həddindən artıq istifadəsinə, tullantıların artmasına və yerli əhalinin gündəlik normal həyatının pozulmasına səbəb olur. Bir çox məşhur şəhərdə kirayə qiymətlərinin yüksəlməsi, küçələrin həddindən artıq yüklənməsi və mədəni irsin zədələnməsi ciddi problemlərə çevrilir. Nəticədə həm dövlətlər, həm də beynəlxalq təşkilatlar turizmin gələcəyini daha davamlı prinsiplər üzərində qurmağın vacibliyini vurğulayırlar.

Son illər turizm sahəsində ən diqqətçəkən yeniliklərdən biri "rəqəmsal köçərilər" anlayışının sürətlə yayılmasıdır. İnternetin inkişafı, bulud texnologiyaları və onlayn əmək bazarının genişlənməsi sayəsində milyonlarla insan artıq ofisə bağlı olmadan işləyə bilir. Proqramçılar, dizaynerlər, marketinq mütəxəssisləri, müəllimlər, məsləhətçilər, tərcüməçilər və digər peşə sahibləri internet bağlantısı olan istənilən ölkədə fəaliyyət göstərmək imkanına malikdirlər. Bu insanlar bir şəhərdə və ya ölkədə uzun müddət qalaraq həm işləyir, həm də həmin məkanı yaxından tanıyırlar. Belə şəxslər "rəqəmsal köçərilər" adlandırılır.

"Rəqəmsal köçərilik" ənənəvi turizm anlayışını əhəmiyyətli dərəcədə dəyişdirib. Əgər klassik turist bir həftə və ya 10 gün ərzində ölkəni tərk edirdisə, "rəqəmsal köçəri" eyni məkanda aylarla yaşayır. Bu müddət ərzində o, təbii olaraq yerli ictimai nəqliyyatdan istifadə edir, supermarketlərdən alış-veriş edir, kafelərdə işləyir, müxtəlif tədbirlərdə iştirak edir və faktiki olaraq şəhər həyatının bir hissəsinə çevrilir. Bunun nəticəsində həmin ölkənin iqtisadiyyatına uzunmüddətli və sabit töhfə verir.

Bir çox dövlət bu yeni tendensiyanı iqtisadi imkan kimi qiymətləndirərək "rəqəmsal köçərilər" üçün xüsusi vizalar tətbiq etməyə başlayıblar. Belə proqramlar xarici mütəxəssislərin müəyyən müddət ərzində ölkədə yaşamasına və uzaqdan işləməsinə imkan yaradır. Bu isə turizm gəlirlərinin yalnız yay mövsümü ilə məhdudlaşmamasına, ilboyu davam etməsinə kömək edir. Bundan əlavə, belə insanlar yeni ideyalar, peşəkar əlaqələr və beynəlxalq əməkdaşlıq imkanları gətirərək innovativ mühitin inkişafına da müsbət təsir göstərirlər.

"Rəqəmsal köçəriliyin" yayılmasının əsas səbəblərindən biri də insanların həyat balansına daha çox önəm verməsidir. Müasir dövrdə bir çox insan hesab edir ki, yüksək məhsuldarlıq üçün mütləq böyük şəhərdə yerləşən ofisdə işləmək vacib deyil. Dəniz sahilində, dağ kəndində və ya tarixi şəhərdə işləmək həm psixoloji rahatlıq yaradır, həm də yaradıcılığı artırır. Bu baxımdan yeni turizm artıq istirahət və iş anlayışlarını bir araya gətirən müasir model formalaşdırır.

Turist davranışlarında müşahidə olunan dəyişikliklər də yeni tendensiyaların formalaşmasına ciddi təsir göstərib. Müasir insanlar artıq standart tur paketlərindən daha çox fərdi planlaşdırılmış səyahətlərə üstünlük verirlər. İnternet vasitəsi ilə hotel bron etmək, aviabilet almaq, marşrut hazırlamaq, restoran seçmək və hətta virtual xəritələrdən istifadə etməklə bütün səyahəti müstəqil təşkil etmək mümkündür. Bu isə turistlərə daha çox azadlıq verir və fərdi maraqlara uyğun marşrutlar yaratmağa imkan yaradır.

Son illər təcrübəyə əsaslanan turizm də sürətlə inkişaf edir. İnsanlar artıq yalnız şəkil çəkdirmək üçün məşhur məkanlara getmək istəmirlər. Onlar yerli mətbəxi öyrənmək, kənd təsərrüfatı işlərində iştirak etmək, milli rəqslərlə maraqlanmaq, sənətkarlıq emalatxanalarında işləmək və yerli ailələrlə birlikdə vaxt keçirmək kimi təcrübələrə üstünlük verirlər. Belə səyahətlər turistlərdə daha güclü emosional təəssüratlar yaradır və mədəniyyətlər arasında qarşılıqlı anlaşmanı artırır.

Sağlamlıq turizmi də yeni dövrün diqqətçəkən istiqamətlərindəndir. Bu gün insanlar yalnız istirahət etmək üçün deyil, həm də fiziki və psixoloji sağlamlıqlarını yaxşılaşdırmaq məqsədilə səyahət edirlər. Spa mərkəzləri, termal sular, yoqa düşərgələri, meditasiya proqramları, sağlam qidalanma və təbiət qoynunda keçirilən istirahət paketləri böyük maraq doğurur. Gərgin iş rejimi və yüksək stres bu istiqamətin populyarlığını daha da artırır.

Macəra turizmi, kənd turizmi, ekoturizm, kulinariya turizmi və mədəni turizm də son illər xeyli populyarlaşıb. İnsanlar fərqli təcrübələr yaşamaq, adrenalin hissini artırmaq, yerli mətbəxi kəşf etmək və şəhərlərlə bərabər, kənd həyatını da yaxından tanımaq istəyirlər. Bu isə turizmin yalnız böyük şəhərlərdə deyil, kiçik yaşayış məntəqələrində də inkişaf etməsinə şərait yaradır.

Rəqəmsal texnologiyalar turizmin, demək olar ki, bütün mərhələlərini dəyişib. Süni intellekt əsaslı tövsiyə sistemləri, virtual reallıq turları, mobil tətbiqlər, elektron ödəniş sistemləri, rəqəmsal xəritələr və avtomatik tərcümə proqramları səyahəti daha rahat və təhlükəsiz edir. İnsanlar səyahət etməzdən əvvəl virtual şəkildə muzeyləri gəzə, hotelləri görə və marşrutlarını dəqiqləşdirə bilirlər. Bu isə daha məlumatlı seçim etməyə imkan yaradır.

Bütün bu dəyişikliklər onu göstərir ki, gələcəyin turizmi əvvəlki dövrlərlə müqayisədə daha məsuliyyətli, daha texnoloji və daha fərdiləşdirilmiş olacaq. İnsanlar yalnız yeni yerlər görmək deyil, həmin yerlərin qorunmasına töhfə vermək, yerli insanlarla ünsiyyət qurmaq, fərqli həyat tərzlərini anlamaq və səyahətdən uzunmüddətli dəyər əldə etmək istəyəcəklər. Dövlətlər və turizm şirkətləri də bu dəyişikliklərə uyğunlaşaraq daha dayanıqlı, innovativ və inklüziv xidmətlər yaratmağa çalışacaqlar.

Turizmdə yeni tendensiyalar qlobal cəmiyyətin dəyişən dəyərlərinin əksidir. Davamlı turizm ətraf mühitin və mədəni irsin qorunmasını ön plana çıxarır, "rəqəmsal köçərilik" iş və səyahət anlayışlarını birləşdirərək yeni həyat tərzi formalaşdırır, fərqli səyahət vərdişləri isə turistlərin daha şüurlu, daha məsuliyyətli və daha zəngin təcrübələr axtardığını göstərir. Gələcəkdə texnologiyanın daha da inkişaf etməsi, ekoloji problemlərin aktuallığını qoruması və insanların həyat tərzinin dəyişməsi ilə bu tendensiyaların daha da güclənəcəyi gözlənilir.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

## BEYNƏLXALQ HƏYAT

# Barış olacaqmı?

## Türkiyə parlamenti "Milli birliyin və sosial inteqrasiyanın gücləndirilməsi haqqında" qanun qəbul edib

"Terrorsuz Türkiyə" prosesinin bir hissəsi olaraq qəbul edilən qanunda Kürdüstan Fəhlə Partiyasının (PKK) üzvləri üçün məhdud əfv nəzərdə tutulur. Sənəd on minlərlə insanın həyatını əlindən alan kürd terrorçuları ilə 40 ildir davam edən münaqişəyə son qoymaq üçün atılan ilk qanunvericilik addımıdır.




Qanun PKK-nın uzun illərdir həbsdə olan qurucusu Abdullah Öcalanın tərəfdarlarını partiyanı buraxmağa və silahlarını yerə qoymağa çağırmasından təxminən bir il yarım sonra qəbul edilib. "Anadolu" Agentliyinin məlumatına görə, qanun layihəsi parlamentdə təxminən 12 saatlıq müzakirələrdən sonra təsdiqlənib: 600 deputatdan 468-i lehinə, 88-i əleyhinə səs verib, 6-sı isə tərəfsiz qalıb. Sənəd Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın hakim Ədalət və İnkişaf Partiyası (AKP), onun ifrat sağçı Milliyyətçi Hərəkat Partiyasındakı (MHP) müttəfiqləri və kürdpərəst müxalifət Türkiyə Demokrat Partiyası (KXDR) tərəfindən dəstəklənib. "Financial Times" qəzetinin məlumatına görə, qanun 12 maddədən ibarətdir və minlərlə PKK üzvünün tərk-silah olunması və yenidən inteqrasiyası üçün prosedurlar müəyyən edir. Sənəd müəyyən cəzaları təxirə salır və iddia edilən cinayətin ağırlığından asılı olaraq davam edən istintaqları 5 və ya 10 il müddətinə dondurur. Bu güzəştləri alanlar başqa cinayətlər törətməsələr, onların cinayət işləri xitam olunacaq və mövcud cəzaları ləğv ediləcək.

Lakin əfv qəsdən adam öldürməkdə ittiham olunan PKK üzvlərinə və ya 2005-ci ildən əvvəl ömürlük həbs cəzasına məhkum edilənlərə şamil olunmayacaq. Bu məhdudiyyət Abdullah Öcalana və digər yüksəkçinli PKK üzvlərinə də aiddir.

Bu, Türkiyə ilə PKK arasında sülhə nail olmaq üçün ilk cəhd deyil. Lakin hələlik 1984-cü ildə başlayan silahlı münaqişəyə son qoymaq üçün ən böyük ümidverici addımdır. PKK terror fəaliyyətinə başlayandan bəri Türkiyədə təxminən 40 min insan həlak olub. O üzdən PKK Türkiyə, ABŞ, Avropa İttifaqı və Böyük Britaniya tərəfindən terror təşkilatı elan edilib.

# İİKK: İran raketləri uçuş yolunu dəyişmək qabiliyyətinə malikdir

İran texnoloji müharibədə təkcə binaları və avadanlıqları məhv etməyi deyil, həm də düşmənin qərar qəbuletmə və müdafiə şəbəkələrini dağıtmağı hədəfləyir.



İran İnqilab Keşikçiləri Korpusunun (İİKK) sözçüsü general-mayor Hüseyn Mühibbi bildirib ki, indi İran raketləri müəyyən bir nöqtədən atılaraq sabit trayektoriya üzrə hərəkət etmir, artıq bəziləri uçuş zamanı istiqamətlərini tənzimləmək və marşrutlarını dəyişdirmək qabiliyyətinə malikdir.

İranın rəsmi xəbər agentliyi IRNA-nın məlumatına görə, H.Mühibbi Qəzvində Jurnalistlər Günü münasibətilə keçirilən mərasimdə çıxış edib. O, İranın raket və pilotsuz təyyarə texnologiyasındakı potensialını qeyd edərək bu imkanların döyüş əməliyyatları zamanı düşmənin "güc şəbəkəsi"nin ayrı-ayrı elementlərinə zərbə endirmək üçün istifadə edildiyini bildirib: "İran raketləri artıq bir nöqtədən atılıb digərinə düşmür. Onlar hədəf almaq və trayektoriyasını dəyişdirmək qabiliyyətinə malikdirlər. Bəziləri düşmənin hava hücumundan müdafiə sistemlərindən yayınmaq üçün uçuş zamanı kursunu dəyişə bilər". Generalın dediyinə görə, İranın texnoloji müharibəsi yalnız binaları və avadanlıqlarını məhv etmək məqsədi daşımır. Mühibbi düşmənin qərar qəbuletmə və müdafiə şəbəkələrini hədəf aldıqlarını bildirib.

İİKK sözçüsü müharibənin vacib aspektlərindən birinin "qavrayışların" formalaşması olduğunu vurğulayıb. Müəyyən hərbi hədəflərə edilən hücumlar fiziki ziyan vurmaqla yanaşı, həm də müəyyən ictimai qavrayışları formalaşdırmaq məqsədi daşıyır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Avropanı bürüyən yeni istilik dalğası həyatı iflic edir

Avropa növbəti dəfə güclü və təhlükəli istilik dalğası ilə üz-üzədir. İqlimşünasların və meteorologiya mərkəzlərinin xəbərdarlıqlarına görə, yaxın günlərdə havanın temperaturu bəzi ölkələrdə yenidən 40 dərəcəyə yaxınlaşacaq. Avropa Orta Müddətli Hava Proqnozları Mərkəzinin məlumatına görə, yazın əvvəlindən ard-arda gələn isti hava dalğaları ciddi böhran halı yaradıb.

Fransa və Böyük Britaniya üçün bu, artıq mövsümün beşinci isti hava dalğasıdır. Havanın temperaturu Fransa daxilində və cənub bölgələrində 40 dərəcəyə çatır. Böyük Britaniyada termometrlər 36 dərəcəni göstərir. Almaniyada isə cənub bölgələri xüsusilə əziyyət çəkir. Frankfurt kimi böyük şəhərlərdə temperaturun 37 dərəcəyə çatacağı gözlənilir. ABŞ Milli Okean və Atmosfer Administrasiyasının qlobal göstəriciləri də sübut edir ki, Avropa ilə yanaşı, Şimali Amerikada da temperatur göstəriciləri ən yüksək həddədir. Avropada xüsusilə şəhər mərkəzlərində "istilik adası" effekti yaranır ki, bu da asfalt və beton binaların istiliyi tərkibində saxlaması səbəbindən şəhərlərdə havanı dözülməz edir.

Bununla yanaşı, Belçika hökuməti yüksək hərarətlə bağlı ölkə üzrə "sarı həyəcan" elan edib. Hollandiyada da temperatur 30 dərəcəni rahatlıqla ötüb. Yaşlılara, uşaqlara və xroniki xəstəliyi olanlara xəbərdarlıq edilib, günün ən isti saatlarında çölə çıxmamaq və bol maye qəbul etmək tövsiyə olunur. Təcili tibbi yardım xidmətlərinə daxil olan zənglərin sayı 30 faiz artıb. Günvurma və susuzlaşma ilə yanaşı, həddindən artıq istilər ürək-damar və tənəffüs sistemi xəstəliklərini kəskinləşdirərək ölüm riskini yüksəldir.

Həddindən artıq olan istilər gündəlik həyatla yanaşı, qitənin iqtisadiyyatına da zərbə vurmaqda davam edir. Uzun sürən quraqlıq səbəbindən Avropanın ən vacib su yolları, Ren, Tuna və Po çaylarında suyun səviyyəsi minimuma enib. Bu vəziyyət bir çox zəncirvari problem yaradır. Çaylarda su azaldığı üçün yük gəmiləri tam tutumla hərəkət edə bilmir. Məsələn, Germersheim bölgəsində Ren çayının dayazlaşması səbəbindən yük gəmiləri öz tutumunun yalnız 25-30 faizi ilə hərəkət edə bilir ki, bu da logistika xərclərini dörd dəfə artırır. Su səviyyəsinin düşməsi hidroelektrik stansiyalarının fəaliyyətini zəiflədir. Həmçinin nüvə santrallarını soyutmaq üçün istifadə olunan suyun hərarəti artdığından bəzi santralların gücü məcburi olaraq azaldılır. Fransanın elektrik enerjisi nəhəngi EDF suyun hərarəti ətraf mühit standartlarını keçdiyi üçün cənubdakı reaktorlarda enerji istehsalını məhdudlaşdırmağa məcbur olub. Nəticədə bu ərazilərdə məhsuldarlıq düşür, suvarma imkanları məhdudlaşır. İspaniya, Fransa və İtaliyada quru hava meşə yanğınları riskini maksimum dərəcəyə qaldırır. İspaniya və Yunanıstanda artıq on minlərlə hektar meşə sahəsi və kənd təsərrüfatı torpağı külə dönüb, minlərlə insan təxliyə edilib.



Alimlərin fikrincə, belə anomal istilər təsadüfi hava şəraiti deyil. İnsan faktoru ilə sürətlənən qlobal iqlim dəyişikliyi artıq özünü gündüz temperaturlarında olduğu kimi, gecə istilərində də göstərir. Gecə saatlarında temperaturun 20-25 dərəcədən aşağı düşməməsi insan orqanizminə mənfi təsir edir. Gecələrin sərinləməməsi təbiətin və insan bədəninin bərpa olunmasına imkan vermir. Avropa bu gün gələcəyin iqlim reallığı ilə üz-üzədir. Yay aylarının bu dərəcədə təhlükəli keçməsi həm dövlətləri, həm də cəmiyyətləri ekoloji tədbirləri daha sürətlə görməyə vadar edir. Əks halda, hər gələn yay əvvəlkindən daha isti olacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Yağış yağacağı, dağlıq və dağətəyi rayonlarda güclənəcəyi proqnozlaşdırılır

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 22-25°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntıların güclənəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26°, gündüz 32-37° isti, dağlarda gecə 14-18°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Gündüz Əliyevə bacısı

**GÜNAY MURTUZLUNUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Bakı Media Mərkəzinin icraçı direktoru Orman Əliyevə atası Əməkdar incəsənət xadimi

**ÇİNGİZ ƏLİOĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3295
Sifariş 1032

Qiyməti 60 qəpik